**"AzFinance İnvestisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyətinin**

**2020-ci il üzrə illik idarəetmə**

**Hesabatı**

| | |
|---|---|
| 1. Emitentin tam və qısaldılmış adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), dövlət qeydiyyatının tarixi və nömrəsi | "AzFinance İnvestisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyəti, "AzFinance İnvestisiya Şirkəti" QSC, VÖEN 1303538081, 30.01.2014; |
| 2.emitentin hüquqi ünvanı və olduğu yer; | Azərbaycan Respublikası, Bakı ş., Yasamal rayonu, N.Nərimanov pr., ev 206, məhəllə 466. |
| 3. adında dəyişikliklər olduqda, emitentin bütün əvvəlki adları, habelə onların qeydiyyata alındığı tarixlər, emitent digər hüquqi şəxsin bölünməsi və ya tərkibindən ayrılması şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxsin adı, emitent hüquqi şəxslərin birləşməsi və ya çevrilmə şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxslərin adları; | Qurumun adı 23.05.2015-ci il tarixində adı və təşkilati hüquqi forması dəyişdirilmişdir. Əvvəlki adı və təşkilati-hüquqi forması: "AZFİNANCE İNVEST" Məhdud Məsuliyyətli Cəmiyyəti. Qeydiyyata alındığı tarix-23.07.2015-ci il |
| 4. emitentin hesabat dövrü ərzində yaranmış və ləğv edilmiş filialları və nümayəndəliklərinin adı, olduqları yer və qeydiyyatları haqqında məlumatlar; | Yoxdur; |
| 5.emitentin hesabat dövrü ərzində yaranmış və ya ləğv edilmiş hər bir törəmə cəmiyyətinin adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı, qeydiyyatı haqqında məlumatlar, nizamnamə kapitalında emitentin payı, hüquqi şəxsin emitentin törəmə cəmiyyəti hesab olunması üçün əsas olan müqavilənin bağlanma tarixi və qüvvədə olma müddəti; | Yoxdur; |
| 6.emitent şirkətlər qrupunun bir hissəsi olduğu təqdirdə qrupun (emitent daxil olmaqla iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən bir və ya daha artıq törəmə təşkilatı olan qrupdur) adı; | Emitent şirkətlər qrupuna daxil deyil. |
| 7.emitentin məşğul olduğu fəaliyyət istiqamətləri; | İnvestisiya şirkəti fəaliyyəti; |
| 8.emitent lisenziya və ya icazəyə malik olduqda, onlar üzrə fəaliyyət növləri və qüvvədə olma müddətləri; | İnvestisiya şirkəti fəaliyyəti; İSN/L-7/2016 06.01.2016-cı il; Müddətsiz |
| 9.emitentin təklif etdiyi məhsullar və xidmətlər; | qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə aparılan əməliyyatlarla bağlı müştəri sifarişlərinin qəbul və icra edilməsi; fərdi investorların portfelinin idarə edilməsi; investisiya məsləhətlərinin verilməsi; qiymətli kağızların öhdəlik götürmədən yerləşdirilməsi və anderraytinqi;qiymətli kağızların öhdəlik götürməklə yerləşdirilməsi və anderraytinqi; mərkəzi depozitarın və fond birjasının üzvü qismində öz hesabına qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə əməliyyatlar aparılması; marja ticarəti;müştərisinin qiymətli kağızlar hesablarının idarə edilməsi, o |

| | |
|---|---|
| | cümlədən qiymətli kağızların və ya törəmə maliyyə alətlərinin öhdəliklərlə yüklənməsi ilə bağlı əməliyyatların həyata keçirilməsi; investorlara qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə həyata keçirdiyi əqdlərin bağlanması üçün kredit və ya digər formada borc verilməsi; qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə bağlı investisiya tədqiqatı və maliyyə təhlilinin aparılması;təmin edilmiş istiqrazlar üzrə təminatın sərəncamçısı xidmətinin həyata keçirilməsi; əsas investisiya xidmətlərinin (əməliyyatlarının) həyata keçirilməsi ilə bağlı xarici valyuta mübadiləsi. |
| 10.emitentin işçilərinin sayı və onun rüblük dinamikası; | 15 nəfər; rüblük dinamikası-1. |
| 11. emitentin idarəetmə orqanları haqqında məlumat: direktorlar şurası (müşahidə şurası) (olduqda), icra orqanı, audit komitəsi (olduqda), onların üzvlərinin adı, soyadı, atasının adı; | Cəmiyyətin müşahidə şurası-<br>Sədr- Mamedov Abid Mamed oğlu.<br>Direktor-Səfərəliyev İntiqam Bəhman oğlu |
| 12.emitentin fiziki və hüquqi şəxs olan səhmdarlarının (payçılarının) ayrı-ayılıqda sayı; | Fiziki şəxs-1 |
| 13.emitentin səhmdarlarının (payçılarının) hesabat dövrü ərzində keçirilmiş yığıncaqları barədə məlumat: yığıncağın keçirilmə tarixi və yeri (ünvan);ümumi yığıncaqda qəbul edilmiş qərarlar. | 18.05.2020-ci il – 2019-cu il üzrə illik hesabatların təsdiq edilməsi;<br>21.09.2020-ci il – səhmlərin satılması;<br>06.11.2020-ci il- nizamnaməyə dəyişikliklərin edilməsi. |
| 14.emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışları haqqında məlumat (investisiya qiymətli kağızların hər buraxılışı ayrı-ayrılıqda göstərilir):<br><br>-investisiya qiymətli kağızın növü və forması;<br><br>- investisiya qiymətli kağızlar buraxılışının dövlət qeydiyyat nömrəsi və qeydiyyat tarixi;<br>- investisiya qiymətli kağızların miqdarı və nominal dəyəri;<br><br>-<br>- investisiya qiymətli kağızlar buraxılışının məcmu nominal dəyəri;<br><br>- hesabat ili ərzində emitent tərəfindən səhmlər üzrə ödənilmiş dividendlər<br><br>haqqında məlumat (hesabat ilində səhmlərin hər növü üzrə ödənilmiş dividendlərin məbləği göstərilir);<br>- faizli istiqrazlar buraxılışı haqqında məlumatda - istiqrazlar üzrə gəlirliyin illik | Sənədsiz , adi səhmlər;<br><br>AZ1001019715; 29.09.2016-ci il<br><br>Hər birinin nominal dəyəri 1000 (bir min) manat olan 1550 (bir mi beş yüz əlli) ədəd;<br><br>1 550 000 (bir milyon beş yüz əlli min) manat;<br><br>Dividend ödənilməyib;<br><br>Dividend ödənilməyib;<br><br>-<br><br>Tədavüldə yoxdur. |

| | |
|---|---|
| faiz dərəcəsi;<br>- investisiya qiymətli kağızların yerləşdirildiyi və ya tədavüldə olduğu fond birjasının adı və olduğu yer (olduqda). | |
| 15.emitent tərəfindən bağlanılmış xüsusi əhəmiyyətli əqdlər barədə məlumatlar: əqdin məbləği; hesabat tarixinə əqdin ödənilməmiş hissəsi. | Yoxdur; |
| 16.emitent tərəfindən aidiyyəti şəxslərlə bağlanılmış əqdlər barədə məlumatlar:<br>- bağlanılmış əqdin mahiyyəti, tarixi və məbləği;<br>- aidiyyəti şəxs barədə məlumat və emitentlə aidiyyət əlaqəsi. | Yoxdur; |
| 17.illik hesabatın təsdiq edildiyi ümumi yığıncağın tarixi; | 16.05.2020-ci il |
| 18.hesabatın açıqlanma mənbəyi haqqında məlumat. | www.afi.az |

**"AzFinance İnvestisiya Şirkəti" QSC-nin**

**Direktoru** **İntiqam Səfərəliyev**

AZƏRBAYCAN RESPUBLİKASI QAPALI SƏHMDAR CƏMİYYƏTİ AZFINANCE İNVESTİSİYA ŞİRKƏTİ CLOSED JOINT-STOCK COMPANY AZERBAIJAN REPUBLIC

**Baş mühasib v.m.i.e.** **Fərid Məmmədov**

**"AzFinance İnvestisiya Şirkəti" QSC**

31 dekabr 2020-ci il tarixində bitən il il üzrə
**Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun Konsolidə Edilmiş Maliyyə Hesabatları**
*Müstəqil Auditorun Hesabatı ilə birlikdə*

**Mündəricat**

MÜSTƏQİL AUDİTORUN HESABATI

KONSOLİDƏ EDİLMİŞ MALİYYƏ HESABATLARI


| | |
|---|---|
| Konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabat | 1 |
| Konsolidə edilmiş mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat | 2 |
| Konsolidə edilmiş kapitalda dəyişikliklər haqqında hesabat | 3 |
| Konsolidə edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabat | 4 |
| Konsolidə edilmiş maliyyə hesabatları üzrə qeydlər | 5-32 |

RSM

**RSM Azerbaijan**

Demirchi Tower 16 th floor,
37 Khojaly ave, AZ1025,
Baku, Azerbaijan

T +994(12) 480 4571
F +994(12) 480 4563

www.rsm.az

**Müstəqil Auditorun Hesabatı**

"AzFinance İnvestisiya Şirkəti" QSC-nin Təsisçilərinə və Rəhbərliyinə :

**Rəy**

Biz "AzFinance İnvestisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyətinin (bundan sonra "Şirkət") və onun törəmə müəssisəsinin (birlikdə "Qrup") 31 dekabr 2020-ci il tarixinə təqdim edilən konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabat, həmin tarixdə başa çatmış il üzrə konsolidə edilmiş mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, eləcə də əsas mühasibat prinsiplərinin və digər izahedici qeydlərin xülasəsindən ibarət olan maliyyə hesabatlarının audit yoxlamasını aparmışıq.

Bizim fikrimizcə, hazırkı konsolidə edilmiş maliyyə hesabatları Qrupun 31 dekabr 2020-ci il tarixinə konsolidə edilmiş maliyyə vəziyyətini, habelə həmin tarixdə başa çatmış il üzrə konsolidə edilmiş maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdən ədalətli əks etdirir.

**Rəy üçün əsas**

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz hesabatımızın "Konsolidə edilmiş maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti" bölməsində əks etdirilir. Biz Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının (MBESŞ) dərc etdiyi Peşəkar Mühasiblərin Etika Məcəlləsinə uyğun olaraq Qrupdan asılı olmadan müstəqil şəkildə fəaliyyət göstəririk və digər etik öhdəliklərimizi Etika Məcəlləsinə uyğun olaraq yerinə yetirmişik.
Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

***Digər məsələ-*** Şirkətin 31 dekabr 2019-cu il tarixində bitən il üzrə konsolidə edilmiş maliyyə hesabatlarına 06 avqust 2020-ci il tarixində digər auditor tərəfindən 24 saylı MUBS "Əlaqəli Tərəf Açıqlamaları" standartının tələblərinə uyğun olaraq Qrupun son nəzarətedici tərəfi haqqında məlumatlarının açıqlanmamasına əsaslanaraq şərti rəy təqdim edilmişdir.

**Konsolidə edilmiş maliyyə hesabatlarına görə rəhbərliyin və korporativ idarəetmə üzrə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik konsolidə edilmiş maliyyə hesabatlarının MHBS-ə uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi, eləcə də fırıldaqçılıq və yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflər olmayan konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin zəruri hesab etdiyi daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.
konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik Qrupu ləğv etmək və ya fəaliyyətini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, Qrupun fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fəaliyyətin fasiləsizliyinə dair məlumatların açıqlanmasına və fəaliyyətin fasiləsizliyi prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.
Korporativ idarəetmə üzrə cavabdeh olan səlahiyyətli şəxslər Qrupun maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

THE POWER OF BEING UNDERSTOOD
AUDIT | TAX | CONSULTING

RSM Azerbaijan is a member of the RSM network and trades as RSM. RSM is the trading name used by the members of the RSM network. Each member of the RSM network is an independent accounting and consulting firm which practices in its own right. The RSM network is not itself a separate legal entity in any jurisdiction.

**Konsolidə edilmiş maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz bütövlükdə konsolidə edilmiş maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olub-olmadığına dair kifayət qədər əminlik əldə etmək və rəyimizin daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kifayət qədər əminlik əminliyin yüksək səviyyəsidir, lakin Beynəlxalq Audit Standartlarına uyğun olaraq auditin aparılması zamanı mövcud olan bütün əhəmiyyətli təhriflərin həmişə aşkar olunacağına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya səhv nəticəsində yarana bilər və fərdi və ya məcmu olaraq istifadəçilərin konsolidə edilmiş maliyyə hesabatları əsasında qəbul edəcəyi iqtisadi qərarlara təsir göstərmək ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

Beynəlxalq Audit Standartlarına uyğun aparılan auditin bir hissəsi olaraq, biz audit zamanı peşəkar mühakimə tətbiq edirik və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Konsolidə edilmiş maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olması riskini müəyyən edir və qiymətləndirir, həmin risklərə qarşı audit prosedurlarını hazırlayır və həyata keçirir və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik.
  Fırıldaqçılıq nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhvlər nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən daha yüksəkdir, çünki fırıldaqçılığa gizli sövdələşmə, saxtakarlıq, məlumatların bilərəkdən göstərilməməsi, yanlış təqdimat və ya daxili nəzarət sistemində sui-istifadə halları daxil ola bilər.
- Qrupun daxili nəzarət sisteminin effektivliyinə dair rəy bildirmək üçün deyil, şəraitə uyğun audit prosedurlarını işləyib hazırlamaq üçün daxili nəzarət sistemi üzrə məlumat əldə edirik.
- Rəhbərlik tərəfindən istifadə edilən uçot siyasətinin uyğunluğunu, habelə uçot təxminləri və müvafiq açıqlamaların münasibliyini qiymətləndiririk.
- Fəaliyyətin fasiləsizliyi prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutları əsasında Qrupun fasiləsiz fəaliyyət göstərmək imkanını ciddi şübhə altına qoya bilən hadisə və şəraitlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair qənaətə gəlirik.
  Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu qənaətinə gəldikdə, auditor rəyimizdə konsolidə edilmiş maliyyə hesabatlarındakı müvafiq məlumatların açıqlanmasına diqqət yetirməli və ya belə məlumatların açıqlanması yetərli olmadıqda, rəyimizdə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və şəraitlər Qrupun fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.
- Məlumatların açıqlanması da daxil olmaqla, konsolidə edilmiş maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında düzgün təqdim edilib-edilmədiyini qiymətləndiririk.
- Konsolidə edilmiş maliyyə hesabatlarına dair rəy bildirmək üçün Qrupa daxil olan müəssisələrin maliyyə məlumatları və ya fəaliyyəti ilə bağlı yetərli müvafiq audit sübutu əldə edirik. Biz qrup auditinin idarə edilməsi, nəzarəti və həyata keçirilməsi üçün məsuliyyət daşıyırıq.

Biz korporativ idarəetmə üzrə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı, planlaşdırılan audit prosedurlarının həcmi və müddəti, habelə əhəmiyyətli audit nəticələri, o cümlədən audit zamanı daxili nəzarət sistemində aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar barədə məlumat veririk.

**"RSM Azerbaijan" MMC**

30 aprel 2021-ci il
Bakı, Azərbaycan Respublikası

RSM Azerbaijan

| | Qeyd | 31 dekabr 2020-ci il | 31 dekabr 2019-cu il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 13 | 161,953 | 789,791 |
| Ticarət hesabında olan pul vəsaitləri | | 115,146 | 4,516 |
| Borc qiymətli kağızlara investisiyalar | 11 | 680,376 | 266,903 |
| Pay qiymətli kağızlara investisiyalar | 12 | 616,015 | 615,192 |
| Ticarət və digər debitor borcları | 10 | 464,006 | 267,484 |
| Cari mənfəət vergisi üzrə qabaqcadan ödənişlər | | 77,628 | - |
| Təxirə salınmış mənfəət vergisi aktivi | 17 | - | 55,862 |
| Əmlak və avadanlıqlar | 8 | 153,143 | 99,426 |
| Qeyri-maddi aktivlər | 9 | 181,673 | 201,859 |
| **CƏMİ AKTİVLƏR** | | **2,449,940** | **2,301,033** |
| **ÖHDƏLİKLƏR** | | | |
| Sair öhdəliklər | 14 | 184,281 | 253,219 |
| Cari mənfəət vergisi öhdəliyi | | - | 134,088 |
| Təxirə salınmış mənfəət vergisi öhdəliyi | 17 | 39,038 | - |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **223,319** | **387,307** |
| **KAPİTAL** | | | |
| Nizamnamə kapitalı | | 1,550,000 | 1,550,000 |
| Kapital qoyuluşu | | 612,175 | 612,175 |
| Bölüşdürülməmiş mənfəət/ (yığılmış zərər) | | 64,281 | (248,799) |
| **Qrupun təsisçilərinə aid olan kapital** | | **2,226,456** | **1,913,376** |
| **Nəzarət olunmayan iştirak payı** | | **164** | **350** |
| **CƏMİ KAPİTAL** | | **2,226,620** | **1,913,726** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **2,449,940** | **2,301,033** |

30 aprel 2021-ci il tarixində imzalanmış və dərc olunmaq üçün təsdiq edilmişdir.

İntiqam Səfərəliyev
Direktor

Fərid Məmmədov
Direktor Müavini/Baş Mühasib vəzifəsini müvəqqəti icra edən

5-32-ci səhifələrdəki qeydlər hazırki konsolidə edilmiş maliyyə hesabatlarının tərkib hissəsidir.

| | Qeyd | 31 dekabr 2020-ci il tarixində bitən il üzrə | 31 dekabr 2019-cu il tarixində bitən il üzrə |
|---|---|---|---|
| **Əməliyyat gəlirləri** | | | |
| Portfelin idarə edilməsindən gəlir | 15 | 1,143,962 | 1,031,184 |
| Broker fəaliyyətindən gəlir | | 189,180 | 589,568 |
| Sair gəlir | 15 | 168,330 | 227,828 |
| **Cəmi gəlir** | | **1,501,472** | **1,848,580** |
| **Xərclər** | | | |
| İşçi heyəti üzrə xərclər | | (671,746) | (964,930) |
| Komissiya xərcləri | | (70,245) | (136,247) |
| Digər əməliyyat xərcləri | 16 | (352,524) | (510,169) |
| Sair xalis gəlir | 16 | 46,737 | 126,650 |
| Digər gəlirlər | 16 | 17,554 | 17,554 |
| **Əməliyyat mənfəəti** | | **471,248** | **381,438** |
| Maliyyə xərcləri | 14 | (3,127) | (18,048) |
| **Vergidən əvvəlki mənfəət** | | **468,122** | **363,390** |
| Mənfəət vergisi xərci | 17 | (155,227) | (102,231) |
| **İL ÜZRƏ MƏNFƏƏT** | | **312,895** | **261,159** |
| **İL ÜZRƏ CƏMİ MƏCMU GƏLİR** | | **312,895** | **261,159** |
| **Cəmi məcmu gəlirin/(zərərin):** | | | |
| - Təsisçilərə aid olan hissəsi | | 313,081 | 261,352 |
| - Nəzarət olunmayan iştirak payına aid olan hissəsi | | (186) | (193) |
| **İl üzrə cəmi məcmu gəlir** | | **312,895** | **261,159** |

30 aprel 2021-ci il tarixində imzalanmış və dərc olunmaq üçün təsdiq edilmişdir.

İntiqam Səfərəliyev
Direktor

Fərid Məmmədov
Direktor Müavini/Baş Mühasib vəzifəsini müvəqqəti icra edən

5-32-ci səhifələrdəki qeydlər hazırki konsolidə edilmiş maliyyə hesabatlarının tərkib hissəsidir.

| | Nizamnamə kapitalı | Kapital qoyuluşu | Yığılmış zərər | Cəmi | Nəzarət olunmayan iştirak payı | Cəmi kapital |
|---|---|---|---|---|---|---|
| **01 yanvar 2019-cu il tarixinə qalıq** | **1,550,000** | **612,175** | **(510,151)** | **1,652,024** | **543** | **1,652,567** |
| İl üzrə cəmi məcmu gəlir | | | 261,352 | 261,352 | (193) | 261,159 |
| **31 dekabr 2019-cu il tarixinə qalıq** | **1,550,000** | **612,175** | **(248,799)** | **1,913,376** | **350** | **1,913,726** |
| İl üzrə cəmi məcmu gəlir | - | - | 313,081 | **313,081** | (186) | **312,895** |
| **31 dekabr 2020-ci il tarixinə qalıq** | **1,550,000** | **612,175** | **64,282** | **2,226,457** | **164** | **2,226,620** |

30 aprel 2021-ci il tarixində imzalanmış və dərc olunmaq üçün təsdiq edilmişdir.

İntiqam Səfərəliyev
Direktor

Fərid Məmmədov
Direktor Müavini/Baş Mühasib vəzifəsini müvəqqəti icra edən

| | Qeyd | 31 dekabr 2020-ci il tarixində bitən il üzrə | 31 dekabr 2019-cu il tarixində bitən il üzrə |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Vergidən əvvəlki mənfəət | | 468,122 | 363,390 |
| Düzəlişlər: | | | |
| Əmlak və avadanlıqların köhnəlməsi və dəyərsizləşməsi | 8 | 79,160 | 135,328 |
| Qeyri-maddi aktivlərin amortizasiyası və dəyərsizləşməsi | 9 | 20,186 | 5,369 |
| Pay qiymətli kağızlar üzrə zərər çıxılmaqla gəlir | | - | (55,891) |
| Maliyyə xərcləri | | 3,127 | 18,048 |
| Əmlak və avadanlıqların silinməsi üzrə gəlir çıxılmaqla zərər | | - | (13,746) |
| **Dövriyyə kapitalında dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | **570,594** | **452,498** |
| Ticarət hesabında olan pul vəsaitlərində dəyişikliklər | | (110,631) | (4,289) |
| Borc qiymətli kağızlara investisiyalarda dəyişikliklər | | (413,473) | (266,903) |
| Pay qiymətli investisiyalarda dəyişikliklər | | (823) | - |
| Ticarət və digər debitor borclarda dəyişikliklər | | (196,523) | 1,003,409 |
| Sair öhdəliklərdə dəyişikliklər | | (129,816) | (376,386) |
| **Dövriyyə kapitalında dəyişikliklər** | | | |
| Ödənilmiş mənfəət vergisi | | (272,041) | - |
| Ödənilmiş maliyyə xərcləri | | (3,127) | (18,048) |
| **Əməliyyat fəaliyyəti üzrə istifadə edilən xalis pul vəsaitləri** | | **555,838** | **790,281** |
| **İnvestisiya fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Əmlak və avadanlıqların alınması | | - | (4,640) |
| Daxili imkanlar hesabına yaradılmış proqram təminatı | | - | (161,883) |
| Əmlak və avadanlıqların silinməsindən daxilolmalar | | - | 30,000 |
| **İnvestisiya fəaliyyəti üzrə daxil olan xalis pul vəsaitləri** | | - | **(136,523)** |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| İcarə öhdəlikləri üzrə əsas borcun ödənilməsi | | (72,000) | (110,506) |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə daxil olan xalis pul vəsaitləri** | | **(627,838)** | **(110,506)** |
| **İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri** | | **789,791** | **246,539** |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | 13 | **161,953** | **789,791** |

30 aprel 2021-ci il tarixində imzalanmış və dərc olunmaq üçün təsdiq edilmişdir.

İntiqam Səfərəliyev
Direktor

Fərid Məmmədov
Direktor Müavini/Baş Mühasib vəzifəsini müvəqqəti icra edən

5-32-ci səhifələrdəki qeydlər hazırki konsolidə edilmiş maliyyə hesabatlarının tərkib hissəsidir.

## 1 "AzFinance İnvestisiya Şirkəti" QSC və onun fəaliyyəti

Hazırkı konsolidə edilmiş maliyyə hesabatları 31 dekabr 2020-ci il tarixində başa çatan il üzrə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq "AzFinance İnvestisiya Şirkəti" QSC (bundan sonra "Şirkət") və onun törəmə müəssisəsi üçün (birlikdə "Qrup" adlandırılır) hazırlanmışdır.

Qrup 30 yanvar 2014-cü il tarixində Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq qapalı səhmdar cəmiyyəti formasında təsis olunub və bu ölkədə fəaliyyət göstərir.

31 dekabr 2020-ci il və 31 dekabr 2019-cu il tarixlərində bitən illər üzrə Şirkətin səhmləri aşağıdakı kapital pay sahiblərinə məxsus olmuşdur

| Səhmdarlar | 31 dekabr 2020-ci il, % | 31 dekabr 2019-cu il, % |
|---|---|---|
| Cənab Abid Mamedov | 100.00% | - |
| "G Capital Middle East limited" | - | 100.00% |
| **Cəmi** | **100%** | **100%** |

31 dekabr 2020-ci il tarixinə Qrupun son nəzarətedici tərəfi Qrupun yekun mülkiyyətçisi cənab Abid Mamedovdur.

***Əsas fəaliyyət istiqamətləri.*** Qrupun əsas fəaliyyəti brokerlik, portfelin idarə edilməsi, konsaltinq və underraytinq xidmətlərindən ibarətdir. Qrup əsasən yerli bazarda, həmçinin xarici bazarlarda qiymətli kağızların alıqı-satqısını həyata keçirir.

31 dekabr 2020-ci il tarixinə "AzFinance İnvestisiya Şirkəti" QSC törəmə müəssisəsi olan "AzFinance Asset Management" MMC-nin səhmlərinin 99%-nə sahibdir.

31 dekabr 2020-ci il tarixinə Qrupda 15 nəfər işçi fəaliyyət göstərir (31 dekabr 2019: 23 nəfər).

***Şirkətin hüquqi və faktiki ünvanı.*** Qrupun hüquqi və faktiki ünvanı aşağıdakı kimidir: Nəriman Nərimanov prospekti ev 206, məhəllə 466, Bakı şəhəri, Azərbaycan Respublikası.

***Təqdimat valyutası.*** Hazırkı konsolidə edilmiş maliyyə hesabatlarındakı məbləğlər başqa valyuta göstərilmədiyi halda, Azərbaycan Manatı ilə ("AZN") təqdim olunmuşdur.

## 2 Qrupun əməliyyat mühiti

Qrup fəaliyyətini əsasən Azərbaycan Respublikasında həyata keçirir və nəticədə, Azərbaycanın iqtisadi və maliyyə bazarlarının inkişaf etməkdə olan bazar xüsusiyyətlərinə məruz qalır.

Neft ixrac edən bir ölkə kimi və neftin dövlət büdcəsinin həcmi, eləcə də dəyəri etibarı ilə əsas paya sahib olduğu üçün Azərbaycan iqtisadiyyatı neftin dəyərindən əhəmiyyətli dərəcədə asılıdır. Bu səbəbdən sözügedən sahənin qiymətlərində yaranan fərqlər iqtisadiyyat üzərində böyük təsirə malikdir və neftin dəyərindəki kəskin dəyişikliklər valyuta dəyərdəndüşməsi, iqtisadiyyat və sənaye sahələrinin inkişafında ləngimələr, həmçinin pul vəsaitlərinin dövriyyəsində yaranan qeyri-sabitlik kimi bu və ya digər makro-iqtisadi faktorların mövcudluğuna gətirib çıxarır.

2014-cü ilin iyun ayının ortalarından etibarən neftin qiymətində qəfil enmə müşahidə olunmağa başladı və neft sahəsindəki gəlirlərin, dolayısı ilə illik büdcə gəlirlərinin azalması, neft istehsalatının aşağı enməsi və bu sahədə aparılan əməliyyatların dayandırılması ilə nəticələndi.

Qlobal neft qiymətlərinin aşağı səviyyədə olması, həmçinin manatın 2015-ci ildəki ikili devalvasiyası iş mühitindəki qeyri-müəyyənliyin səviyyəsini son illərdə daha da artırdı.

## 2 Qrupun əməliyyat mühiti (davamı)

2017-ci ilin 12 yanvar tarixindən, Azərbaycan Respublikasının Mərkəzi Bankı üzən məzənnə sisteminə sərbəst keçid imkanı üçün kommersiya banklarına tətbiq etdiyi 4% məzənnə dəhlizini ləğv etdi, 2018-ci il ərzində isə manatın dəyəri sabitləşməyə başladı.

2019-cu ildə AMB-nin İdarə Heyəti faiz dəhlizinin parametrlərini 8 dəfə nəzərdən keçirdi. Ölkədə uçot dərəcəsi tədricən 9,75%-dən 7,5%-ə, faiz dəhlizinin yuxarı həddi 11,75%-dən 9,25%-ə, aşağı həddi isə 7,75%-dən 5,75%-ə endirildi.

Azərbaycan Dövlət Neft Fondunun (ARDNF) aktivləri ilk dəfə 40 milyard dolları keçdi. Bu, Azərbaycanın valyuta ehtiyatlarının da məbləğinə təsir etdi və 4 illik fasilədən sonra ölkə yenidən 50 milyard dollardan artıq ehtiyata malik oldu.

2019-cu ildə Azərbaycanda minimum əmək haqqı və pensiya ilk dəfə yaşayış minimumunu üstələdi. 2020-ci ildə isə minimum əmək haqqında heç bir dəyişiklik olmadı. Ölkə prezidentinin müvafiq Sərəncamla 2020-ci ilin 1 yanvar tarixinə 2019-cu il üzrə Dövlət Statistika Komitəsi tərəfindən müəyyən edilən orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq bütün növ əmək pensiyalarının sığorta hissəsi indeksləşdirilərək 16,6 faiz artırıldı. Artım sığorta prinsipi ilə pensiya alan bütün pensiyaçıların, yəni 1 milyon 120 minə yaxın insanın pensiyasına şamil olundu..

30 yanvar 2020-ci il tarixində Ümumdünya Səhiyyə Təşkilatı koronavirus (COVID-19) infeksiyasının yayılmasını "ictimai səhiyyə sahəsində beynəlxalq əhəmiyyət kəsb edən fövqəladə vəziyyət" elan etdi. 2020-ci ilin birinci yarısında qlobal iqtisadiyyata koronavirus pandemiyasının yayılması öz mənfi təsirini göstərdi.

2020-ci ilin iyun-iyul aylarına doğru bir çox ölkə pandemiyanın yayılmasının azaldığına dair göstəricilər nümayiş etdirməyə başlasa da, dünyada pandemiyanın zirvəsi 2020-ci ilin iyun-iyul aylarında baş verdi və nəticədə məhdudiyyətlə bağlı tədbirləri daha da sərtləşdi. Qapanmalar və karantin tədbirləri pərakəndə satış, nəqliyyat, səyahət, iaşə, otel, əyləncə və digər bir çox müəssisənin bağlanması ilə nəticələndi. Beynəlxalq ticarət də əhəmiyyətli dərəcədə azaldı. Eyni zamanda neft qiymətləri ciddi şəkildə dəyər itirdi, lakin dövrün sonunda qiymətlər nisbətən stabilləşməyə başladı. Həyata keçirilən tədbirlər yeni koronavirus hadisələrinin tədricən azalmasına səbəb oldu və 2020-ci ilin avqust ayına qədər Azərbaycan Respublikası hökuməti daxil olmaqla bir çox hökumətlər məhdudiyyətləri azaltmağa başladı. 2020-ci ilin dekabr ayında pandemiya ilə bağlı məhdudiyyətlərin yenidən sərtləşdiyi müşahidə olundu. Dünya və ölkə üzrə maliyyə və əmtəə bazarlarında qeyri-sabitlik artmaqdadır. Rəhbərlik mövcud vəziyyətin Qrupun fəaliyyətinə mümkün təsirlərini izləməyə davam edəcəkdir.

## 3 Əsas uçot siyasəti

***Maliyyə hesabatlarının hazırlanmasının əsasları.*** Qrupun hazırkı konsolidə edilmiş maliyyə hesabatları Beynəlxalq Mühasibat Standartları Şurası tərəfindən dərc edilmiş Maliyyə Hesabatlarının Beynəlxalq Standartları ("MHBS") və Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına Şərhlər Komitəsi ("MHBSŞK") tərəfindən dərc edilmiş şərhlər əsasında hazırlanmışdır.

Konsolidə edilmiş maliyyə hesabatlarının MHBS-ə uyğun olaraq hazırlanması bəzi əhəmiyyətli uçot təxminlərinin istifadəsini tələb edir. Bundan əlavə, uçot siyasətini tətbiq edərkən rəhbərlik öz mülahizələrini irəli sürməlidir. Daha yüksək mülahizə tələb edən və ya mürəkkəb olan sahələr, həmçinin konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanması üçün ehtimal və təxminlərin əhəmiyyətli olduğu sahələr Qeyd 4-də açıqlanır.

**3 Əsas uçot siyasəti (davamı)**

***Konsolidə edilmiş maliyyə hesabatları.*** Qrup (i) investisiya obyektinin gəlirlərinə əhəmiyyətli təsir göstərən müvafiq funksiyaları idarə etmək səlahiyyətinə malik olduqda (ii) investisiya obyektində iştirakından yaranan dəyişən gəlirlər ilə əlaqədar risklərə məruz qaldıqda və ya belə gəlirləri əldə etmək hüququna malik olduqda və (iii) investorun gəlirlərinə təsir göstərmək məqsədilə investisiya obyektinin üzərində öz səlahiyyətlərindən istifadə etmək imkanına malik olduqda belə müəssisələr Qrupun nəzarəti altında olan törəmə müəssisələr sayılır. Qrupun digər müəssisə üzərində səlahiyyətlərini müəyyən edərkən əsaslı hüquqların mövcudluğu və təsiri, o cümlədən potensial səsvermə hüquqları nəzərə alınır. Hüquq o halda əsaslı olur ki, belə hüquq sahibi investisiya obyektinin fəaliyyətinin əhəmiyyətli hissəsi ilə bağlı qərar qəbul etdiyi zaman belə hüququ praktiki olaraq icra etmək imkanına malik olsun. Qrup hətta investisiya obyektinin səsvermə hüquqlarının çox hissəsinə malik olmadıqda belə, investisiya obyekti üzərində səlahiyyətlərə malik ola bilər. Belə hallarda Qrup investisiya obyekti üzərində real səlahiyyətlərə malik olub-olmadığını müəyyən etmək məqsədilə digər səsvermə hüquqlu şəxslərin hüquqlarının həcmi və bölüşdürülmə dərəcəsi ilə əlaqədar öz səsvermə hüququnun həcmini qiymətləndirməlidir. Törəmə müəssisələrin əməliyyatları üzrə nəzarət Qrupa keçdiyi tarixdən (alış tarixi) belə müəssisələr konsolidə edilmiş maliyyə hesabatlarına daxil edilir və nəzarətin itirildiyi tarixdən konsolidə edilmiş maliyyə hesabatlarından çıxarılır.

Qrup tərəfindən törəmə müəssisələrin alınması alış metodu ilə uçota alınır. Alınmış identifikasiya edilə bilən aktivlər və müəssisələrin birləşməsi zamanı qəbul edilmiş öhdəliklər və şərti öhdəliklər nəzarət olunmayan iştirak payının həcmindən asılı olmayaraq alış tarixinə ədalətli dəyərdə əks etdirilir.

Qrup mövcud iştirak paylarını əks etdirən və pay sahibinə müəssisənin likvidasiyası halında xalis aktivlərdə proporsional həcmdə pay əldə etmək hüququ verən nəzarət olunmayan iştirak payını hər bir əməliyyat üzrə fərdi qaydada a) ədalətli dəyərlə və ya b) əldə edilmiş müəssisənin xalis aktivlərində nəzarət olunmayan iştirak payına proporsional şəkildə qiymətləndirir. Mövcud iştirak paylarını əks etdirməyən nəzarət olunmayan iştirak payı ədalətli dəyərlə qiymətləndirilir.

Əldə edilmiş şirkətə görə ödənişlər təqdim edilmiş aktivlərin, buraxılmış pay alətlərinin və qəbul edilmiş və ya yaranmış öhdəliklərin ədalətli dəyərində, o cümlədən şərti ödənişlər üzrə razılaşmalar nəticəsində yaranmış aktiv və öhdəliklərin ədalətli dəyərində qiymətləndirilir. Bu zaman məsləhət xidmətləri, hüquq xidmətləri, qiymətləndirmə və analoji peşəkar xidmətlərə görə ödənişlər kimi alış xərcləri nəzərə alınmır. Pay alətlərinin buraxılması zamanı yaranmış əməliyyat xərcləri kapitaldan çıxılır; borc qiymətli kağızların buraxılması ilə bağlı yaranmış əməliyyat xərcləri onların balans dəyərindən çıxılır və alış ilə bağlı bütün digər əməliyyat xərcləri xərcə silinir.

Qrupdaxili əməliyyatlar, bu əməliyyatlar üzrə qalıqlar, eləcə də qrup şirkətəri arasında həyata keçirilən əməliyyatlar üzrə reallaşdırılmamış gəlirlər hesabatlarda əks etdirilmir. Bundan əlavə, realizasiya olunmamış zərərlər də çəkilmiş xərclər bərpa edilmədiyi halda maliyyə hesabatlarından çıxarılır. Şirkət və onun bütün törəmə müəssisələri Qrupun siyasətinə uyğun olaraq vahid uçot siyasəti tətbiq edir.

Nəzarət olunmayan iştirak payı Qrupun birbaşa və ya dolayısı ilə sahib olmadığı paya düşən törəmə müəssisənin xalis fəaliyyət nəticələrinin və kapitalının bir hissəsini əks etdirir. Nəzarət olunmayan iştirak payı Qrupun kapitalının ayrıca komponentini formalaşdırır.

**3 Əsas uçot siyasəti (davamı)**

*Xarici valyutanın çevrilməsi.* Qrupun konsolidə edilmiş müəssisələrinin əməliyyat valyutası həmin müəssisələrin fəaliyyət göstərdiyi əsas iqtisadi mühitin valyutası hesab edilir. Qrup və onun törəmə müəssisəsinin əməliyyat valyutası, eləcə də Qrupun təqdimat valyutası Azərbaycan Respublikasının milli valyutası olan Azərbaycan Manatıdır ("AZN"). Hazırkı konsolidə edilmiş maliyyə hesabatlarındakı məbləğlər Qrupun təqdimat valyutası olan Azərbaycan Manatı ("AZN") ilə əks olunmuşdur.

*Əməliyyatlar və qalıqlar.* Monetar aktivlər və öhdəliklər Azərbaycan Respublikasının Mərkəzi Bankının ("Mərkəzi Bank") müvafiq hesabat dövrünün sonuna qüvvədə olan rəsmi valyuta məzənnəsinə uyğun olaraq hər bir müəssisənin əməliyyat valyutasına çevrilir. Belə əməliyyatlar üzrə hesablaşmaların həyata keçirilməsi və monetar aktiv və öhdəliklərin Mərkəzi Bankın ilin sonuna müəyyən etdiyi rəsmi məzənnə ilə hər bir müəssisənin əməliyyat valyutasına çevrilməsi nəticəsində yaranan gəlir və zərər mənfəət və ya zərərdə tanınır. İlin sonuna qüvvədə olan məzənnə ilə çevrilmə ilkin dəyərlə qiymətləndirilən qeyri-monetar maddələrə tətbiq edilmir. Məzənnə dəyişikliklərinin pay qiymətli kağızların ədalətli dəyərinə təsiri ədalətli dəyərlə yenidən qiymətləndirmə üzrə gəlir və ya zərərin tərkibində qeydə alınır.

31 dekabr 2020-ci il və 2019-cu il tarixinə xarici valyuta qalıqlarının çevrilməsində istifadə olunan rəsmi valyuta məzənnələri aşağıdakı kimi olmuşdur:

| Valyuta | 2020-ci il | 2019-cu il |
|---|---|---|
| ABŞ dolları | 1.7000 | 1.7000 |
| Rus rublu | 0.0231 | 0.0274 |
| Avro | 2.0890 | 1.9035 |

***Əmlak və avadanlıqlar.*** Əmlak və avadanlıqlar hər hansı yığılmış köhnəlmə və ehtiyac yaranarsa dəyərsizləşmə üzrə zərərlər çıxılmaqla, ilkin dəyərdə uçota alınır.
Hər bir hesabat dövrünün sonunda Qrup öz əmlak və avadanlıqlarını dəyərsizləşmə zərərlərinin baş verməsini təyin etmək məqsədi ilə təhlil edir. Əgər belə hal mövcud olarsa belə aktiv üzrə əldə edilməsi mümkün olan məbləğ təyin edilir və dəyərsizləşmə zərərinin məbləği (əgər varsa) hesablanır. Fərdi aktiv üzrə əldə edilməsi mümkün olan məbləğin təyin edilməsi mümkün olmadıqda Qrup aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidinin qalıq dəyərini təhlil edir.
Əmlak və avadanlıqların satışından əldə edilən gəlirlər və zərərlər onların balans dəyərinə əsasən müəyyən edilir və mənfəət və ya zərər haqqında hesabatda mənfəət və zərər hesabatında əks etdirilir.
Köhnəlmə, əmlak və avadanlıqların ilkin dəyərinə onların faydalı iqtisadi ömrü nəzərə alınmaqla azalan qalıq metodu ilə tətbiq edilir. Faydalı iqtisadi ömür təxminləri, qalıq dəyərləri və köhnəlmə metodları hər hesablanırbir hesabat tarixində yenidən təhlil edilir və təxminlərdə olan dəyişikliklərin təsiri prospektiv olaraq tətbiq edilir.
Əmlak və avadanlıqlara aşağıdakı illik faiz dərəcələrilə köhnəlmə xərci hesablanır:

| Əmlak və avadanlığın kateqoriyası | 2020-ci il | 2019-cu il |
|---|---|---|
| Kompüter və ofis avadanlığı | 25% | 25% |
| Nəqliyyat vasitələri | 25% | 25% |
| Digər | 20% | 20% |

Silindikdə, satıldıqda və ya istifadəsinin davam etdirilməsi zamanı gələcəkdə iqtisadi faydanın əldə edilməsi təxmin edilmədikdə əsas vəsaitlərin və qeyri-maddi aktivlərinin tanınmasına xitam verilir. Əsas vəsaitlərin və qeyri-maddi aktivlərin tanınmasına xitam verilməsi nəticəsində yaranan mənfəət və zərərlər satış nəticəsində əldə edilən vəsaitlərlə aktivin qalıq dəyəri arasında olan fərq kimi hesablanır və dərhal mənfəət və zərər hesabında tanınır.

**3 Əsas uçot siyasəti (davamı)**

***Qeyri-maddi aktivlər.*** Qrupun qeyri-maddi aktivləri əsasən kapitallaşdırılmış proqram təminatından ibarətdir. Proqram təminatı üzrə əldə edilmiş lisenziyalar həmin proqram təminatının alınması və tətbiq edilməsi üçün çəkilmiş xərclərin əsasında kapitallaşdırılır. Qrup tərəfindən nəzarət olunan identifikasiya edilə bilən unikal proqram təminatının yaradılması ilə birbaşa əlaqəli olan xərclər çəkilmiş xərclərdən artıq olan əlavə iqtisadi səmərə gətirəcəyi halda qeyri-maddi aktiv kimi tanınır. Kapitallaşdırılmış xərclərə proqram təminatını tərtib edən işçilərə sərf olunan xərclər və ümumi təsərrüfat xərclərinin müvafiq hissəsi daxildir. Proqram təminatı ilə əlaqəli bütün digər xərclər (məs, texniki dəstək xərcləri) çəkildiyi zaman xərcə silinir. Kapitallaşdırılmış proqram təminatı azalan qalıq metodu ilə sabit amortizasiya dərəcəsi 10% illik tətbiq olunmaqla hesablanır.

***Maliyyə alətləri - əsas qiymətləndirmə üsulları.*** Ədalətli dəyər qiymətləndirmə tarixində bazar iştirakçıları arasında könüllü şəkildə əməliyyat həyata keçirilərkən aktivi satmaq üçün alınacaq və öhdəliyi ötürərkən ödəniləcək dəyərdir. Ədalətli dəyər ən yaxşı olaraq fəal bazarda alınıb satıla bilən qiymət ilə təsdiqlənir. Fəal bazar qiymətlər haqqında davamlı olaraq məlumat əldə etmək üçün aktiv və öhdəliklər üzrə əməliyyatların kifayət qədər tez müddətdə və həcmdə həyata keçirildiyi bazardır.

Fəal bazarda alınıb satılan maliyyə alətlərinin ədalətli dəyəri ayrı-ayrı aktiv və ya öhdəliklərin bazar qiymətinin müəssisənin istifadəsində olan aktiv və ya öhdəliklərin miqdarına hasili nəticəsində alınan məbləğ kimi ölçülür. Bu hal hətta bazarın normal gündəlik ticarət dövriyyəsi müəssisənin istifadəsində olan aktiv və öhdəliklərin qarşılanması üçün kifayət qədər olmadıqda və bir əməliyyat üzrə mövqelərin satılması üçün sifarişlərin yerləşdirilməsi bazar qiymətinə təsir etdikdə baş verir.

Əməliyyatın qiyməti haqqında bazar məlumatı olmayan maliyyə alətlərinin ədalətli dəyərini müəyyən etmək üçün pul axınlarının diskontlaşdırılması modelindən, həmçinin bazar şərtləri ilə həyata keçirilən analoji əməliyyatlar haqqında məlumatlara və ya investisiya olunan müəssisələrin cari dəyərinə əsaslanan modellərdən istifadə edilir. Ədalətli dəyərin qiymətləndirilməsi nəticələri aşağıda göstərildiyi kimi ədalətli dəyər iyerarxiyasının səviyyələrinə görə təhlil edilir: (i) 1-ci Səviyyəyə oxşar aktivlər və ya öhdəliklər üçün aktiv bazarlarda kotirovka olunan (düzəliş edilməyən) qiymətlər ilə qiymətləndirmələr aiddir; (ii) 2-ci Səviyyəyə aktiv və ya öhdəlik üçün birbaşa (yəni, qiymətlər) və ya dolayısı ilə (yəni, qiymətlər əsasında hesablananlar) müşahidə edilə bilən əhəmiyyətli ilkin məlumatların istifadə edildiyi qiymətləndirmə üsulları ilə qiymətləndirmələr aiddir; (iii) 3-cü Səviyyəyə aid olan qiymətləndirmələr yalnız müşahidə oluna bilən bazar məlumatlarına əsaslanmır (yəni, qiymətləndirmə üçün əhəmiyyətli həcmdə müşahidə oluna bilməyən ilkin məlumatlar tələb edilir). Ədalətli dəyər iyerarxiyasının səviyyələri arasında köçürmələr hesabat dövrünün sonunda baş vermiş hesab edilir.

*Əməliyyat xərcləri* əlavə xərcləri əks etdirir və birbaşa olaraq maliyyə alətinin alışı, buraxılması və ya satışı ilə əlaqəlidir. Əlavə xərc əməliyyat həyata keçirilmədiyi təqdirdə yaranmayan xərclərdir. Əməliyyat xərclərinə agentlərə (satış üzrə agentlər kimi fəaliyyət göstərən işçilər daxil olmaqla), məsləhətçilərə, brokerlərə və dilerlərə ödənilmiş haqq və komissiyalar, tənzimləyici orqanlar və fond birjalarına ödəmələr, eləcə də mülkiyyət hüququnun köçürülməsi üzrə vergilər və rüsumlar daxildir. Əməliyyat xərclərinə borc öhdəlikləri üzrə mükafat və ya diskontlar, maliyyələşdirmə xərcləri, daxili inzibati və ya saxlama xərcləri daxil edilmir.

*Amortizasiya olunmuş dəyər* əsas məbləğ üzrə ödənişlərin çıxılmasından və hesablanmış faizlərin əlavə edilməsindən, maliyyə aktivləri üçün isə gözlənilən kredit zərərləri (GKZ) üzrə ehtiyatın çıxılmasından sonra maliyyə alətinin ilkin tanınma zamanı qeydə alınan dəyəridir.

***Maliyyə alətlərinin ilkin tanınması.*** MZƏD kateqoriyasında ölçülən maliyyə alətləri ilkin olaraq ədalətli dəyərlə tanınır. Bütün digər maliyyə alətləri əməliyyat xərcləri də daxil olmaqla, ilkin olaraq ədalətli dəyərlə tanınır. İlkin tanınma zamanı ədalətli dəyər ən yaxşı olaraq əməliyyat qiyməti ilə təsdiqlənir. İlkin tanınma zamanı gəlir və ya zərər yalnız ədalətli dəyər ilə əməliyyat qiyməti arasında fərq olduqda qeydə alınır. Əməliyyat qiyməti eyni maliyyə aləti ilə aparılan digər müşahidə oluna bilən cari bazar əməliyyatları və ya əsas məlumat kimi yalnız müşahidə edilə bilən bazarların məlumatlarını istifadə edən qiymətləndirmə modeli ilə təsdiqlənir. İlkin tanınmadan sonra amortizasiya olunmuş dəyərlə qiymətləndirilən maliyyə aktivləri və ədalətli dəyərin dəyişməsi sair məcmu gəlirə aid edilən ("SMGƏD") borc alətlərinə investisiyalar

**3 Əsas uçot siyasəti (davamı)**

üzrə gözlənilən kredit zərərləri üçün ehtiyat tanınır və bu da aktivin ilkin tanınmasından dərhal sonra zərərin tanınması ilə nəticələnir.

Qanunvericilik və ya ümumi qəbul edilmiş bazar qaydaları ilə müəyyən edilmiş vaxt çərçivəsində təchiz olunması nəzərdə tutulan maliyyə aktivlərinin bütün digər alış və satışları ("standart şərtlər" əsasında alış və satışlar), Qrupun maliyyə aktivini almaq və ya satmaq öhdəliyini qəbul etdiyi əməliyyat tarixində qeydə alınır. Alış üzrə bütün digər əməliyyatlar Qrupun həmin maliyyə aləti üzrə müqavilə tərəfi olduğu halda tanınır.

***Maliyyə aktivlərinin təsnifləşdirilməsi və sonrakı dövrdə qiymətləndirilməsi: qiymətləndirmə kateqoriyaları.*** Qrup maliyyə aktivlərini aşağıdakı kateqoriyalara təsnifləşdirir:

(a) Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərə aid olunan maliyyə aktivləri (MZƏD). Bu kateqoriya məcburi qaydada təsnifləşdirilən və ilkin tanınma zamanı MZƏD kateqoriyası kimi müəyyən edilən maliyyə aktivlərini ayrıca göstərir.

(b) Amortizasiya olunmuş dəyərlə ölçülən maliyyə aktivləri (AD).

(c) Ədalətli dəyərinin dəyişməsi sair məcmu gəlirə aid olunan maliyyə aktivləri (SMGƏD).

Borc maliyyə aktivlərinin təsnifləşdirilməsi və sonrakı dövrdə qiymətləndirilməsi: (i) müvafiq aktivlər portfelinin idarə olunması üçün Qrupun biznes modelindən və (ii) aktiv üzrə pul axınlarının xüsusiyyətindən asılıdır.

***Maliyyə aktivlərinin təsnifləşdirilməsi və sonrakı dövrdə qiymətləndirilməsi: biznes model.*** Biznes model Qrupun pul axınları əldə etməsi məqsədilə portfelin idarə edilməsi üçün istifadə etdiyi metodu əks etdirir və Qrupun məqsədinin: (i) aktivlərdən yalnız müqavilə üzrə pul axınlarının əldə edilməsi ("“müqavilə üzrə pul axınlarının əldə edilməsi üçün aktivin saxlanılması") və ya (ii) müqavilədə nəzərdə tutulan və aktivlərin satışından yaranan pul axınlarının əldə edilməsi ("müqavilə üzrə pul axınlarının əldə edilməsi və maliyyə aktivlərinin satılması üçün aktivlərin saxlanılması") olub-olmadığını müəyyən edir. (i) və (ii) bəndlər tətbiq edilmədikdə, maliyyə aktivləri "digər" biznes modellərə aid edilir və MZƏD kateqoriyasında ölçülür.

Biznes model qiymətləndirmə tarixində mövcud olan portfel üzrə müəyyən edilmiş məqsədlərə nail olmaq üçün Qrupun həyata keçirməyi planlaşdırdığı fəaliyyətə dair bütün müvafiq sübutlar əsasında aktivlər qrupu (portfel səviyyəsində) üçün müəyyən edilir. Biznes modelin müəyyən edilməsi zamanı Qrupun nəzərə aldığı amillərə Qrupun strategiyası, portfelin məqsədi və tərkibi, müvafiq aktivlər üzrə pul axınlarının əldə edilməsi ilə bağlı keçmiş təcrübə, aktivlər üzrə gəlirliliyin qiymətləndirilməsi üsulları və portfelin idarə edilməsi menecerlərinə ödənişlərin sxemi daxildir. Maliyyə aktivləri üçün biznes modellərin müəyyən edilməsində Qrupun istifadə etdiyi əsas mülahizələr Qeyd 4-də göstərilir.

***Maliyyə aktivlərinin təsnifləşdirilməsi və sonrakı dövrdə qiymətləndirilməsi: pul axınlarının xüsusiyyətləri.*** Biznes model müqavilə üzrə pul axınlarının əldə edilməsi və ya müqavilə üzrə pul axınlarının əldə edilməsi və maliyyə aktivlərinin satılması üçün aktivlərin saxlanılmasını nəzərdə tutduqda, Qrup pul axınlarının yalnız əsas məbləğ və faiz ödənişlərindən ibarət olub-olmadığını qiymətləndirir (YƏMFÖ təhlili).

***Maliyyə aktivlərinin dəyərsizləşməsi: gözlənilən kredit zərərləri üzrə ehtiyat.*** Qrup amortizasiya olunmuş dəyərlə və SMGƏD kateqoriyasında ölçülmüş borc alətləri, eləcə də kredit öhdəlikləri və maliyyə zəmanəti müqavilələrindən yaranan risklər üzrə gözlənilən kredit zərərlərini (GKZ) proqnozlar əsasında qiymətləndirir. Qrup hər bir hesabat tarixində gözlənilən kredit zərərlərini qiymətləndirir və kredit zərərləri üzrə ehtiyatı tanıyır. Gözlənilən kredit zərərlərinin qiymətləndirilməsi aşağıdakıları özündə əks etdirir: (i) bir sıra mümkün nəticələrin qiymətləndirilməsi yolu ilə müəyyən edilmiş obyektiv və ehtimal ilə ölçülmüş məbləğ, (ii) pulun zaman dəyəri və (iii) hesabat tarixində keçmiş hadisələr, cari şərtlər və proqnozlaşdırılan gələcək iqtisadi vəziyyət haqqında artıq xərc çəkmədən və ya çalışmadan əldə edilə bilən əsaslandırılmış və təsdiqlənmiş məlumat.

## 3 Əsas uçot siyasəti (davamı)

Qrup maliyyə aktivlərinin ilkin tanınmasından etibarən kredit keyfiyyətindəki dəyişikliklərə əsaslanaraq üç mərhələli dəyərsizləşmə modeli tətbiq edir. BMHS 9 mərhələlərin müəyyən olunması yanaşmasında praktiki istisnadan istifadə etməklə, defolt olmamış aktivləri 2-ci Mərhələyə təsnifləşdirməyə imkan verir. Bu səbəbdən maliyyə aktivləri 2-ci Mərhələyə (aktiv defolt olmamış kimi tanındıqda) və ya 3-cü Mərhələyə (defolt şərtləri yerinə yetirildikdə) təsnifləşdirilir və hər iki mərhələdə ehtiyat bütöv müddət üçün tanınır. Qrup müəyyən olunmuş PD reytinqləri üzrə gələcək təxmin edilən nəticələri artıq özündə əks etdirən Keçid Matrisindən istifadə edir.

***Maliyyə aktivlərinin tanınmasının dayandırılması.*** Qrup aşağıdakı hallarda maliyyə aktivlərinin tanınmasını dayandırır: (a) aktivlər geri alındıqda və ya bu aktivlərlə əlaqədar pul vəsaitlərinin hərəkəti üzrə hüquqların müddəti başa çatdıqda və ya (b) Qrup maliyyə aktivlərindən daxil olan pul vəsaitlərinin axını üzrə mülkiyyət hüququnu ötürdükdə və ya ötürülmə haqqında müqavilə bağladıqda və bu zaman (i) həmin aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə başqa tərəfə ötürdükdə və ya (ii) bu aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə ötürmədikdə və ya saxlamadıqda, lakin, həmin aktivlər üzrə nəzarət hüququnu özündə saxlamadıqda.

Qarşı tərəf satışa məhdudiyyətlər qoymadan aktivi tam olaraq əlaqəli olmayan üçüncü tərəfə satmaq imkanına malik olmadıqda nəzarəti özündə saxlayır.

***Maliyyə öhdəliklərinin qiymətləndirilmə kateqoriyaları.*** Qrup maliyyə öhdəliklərini aşağıdakı kateqoriyalara təsnifləşdirir.

(a) MZƏD kateqoriyasında ölçülən maliyyə öhdəlikləri. Bu kateqoriya ticarət üçün saxlanılan və ilkin tanınma zamanı MZƏD kateqoriyası kimi müəyyən edilən maliyyə öhdəliklərini ayrıca göstərir.

(b) Amortizasiya olunmuş dəyərlə ölçülən maliyyə öhdəlikləri.

***Maliyyə öhdəliklərinin tanınmasının dayandırılması.*** Maliyyə öhdəliyinin tanınması öhdəlik icra edildiyi halda dayandırılır (yəni, müqavilədə göstərilən öhdəlik yerinə yetirildikdə, ləğv edildikdə və ya icra müddəti başa çatdıqda).

***MZƏD kateqoriyasında ölçülən maliyyə öhdəlikləri.*** İlkin tanınma zamanı Qrup bəzi öhdəliklərini MZƏD kateqoriyasında ölçə bilər. Belə öhdəliklər üzrə gəlir və zərər sair məcmu gəlirlərdə qeydə alınan və sonradan mənfəət və ya zərərə yenidən təsnifləşdirilməyən öhdəlik üzrə (bazar şərtlərindəki dəyişikliklərə aid olmayan və nəticədə bazar riskinə səbəb olan məbləğ kimi müəyyən edilir) kredit riskindəki dəyişikliklər ilə əlaqəli olan ədalətli dəyərdəki dəyişikliyin məbləği istisna olmaqla, mənfəət və ya zərərin tərkibində tanınır. Belə bir təqdimat mühasibat uyğunsuzluğu yaratmadığı və ya onu artırmadığı təqdirdə mümkündür. Bu halda öhdəlik üzrə kredit riskindəki dəyişikliklər ilə əlaqəli olan gəlir və zərər də mənfəət və ya zərərin tərkibində göstərilir.

***Pul vəsaitləri və onların ekvivalentləri.*** Pul vəsaitləri və onların ekvivalentləri pul vəsaitlərinin əvvəlcədən məlum olan məbləğinə asan çevrilə bilən və dəyərin cüzi dəyişməsi kimi riskə məruz qalan qısamüddətli qoyuluşlardır. Pul vəsaitləri və onların ekvivalentlərinə nağd pul, banklarda tələb edilənədək saxlanılan depozitlər və ilkin ödəmə müddəti üç ay və daha az olan digər qısamüddətli yüksək likvidli investisiyalar daxildir. Pul vəsaitləri və onların ekvivalentləri aşağıdakı amillərə görə amortizasiya olunmuş dəyərlə qeydə alınır: (i) onlar müqavilə üzrə pul axınlarının əldə edilməsi üçün saxlanılır və bu pul axınları yalnız əsas borc və faiz ödənişlərindən ibarətdir və (ii) MZƏD kateqoriyasına aid edilmir.

***Ticarət hesabında olan pul vəsaitləri.*** Ticarət hesabında olan pul vəsaitləri Milli Depozit Mərkəzində saxlanılan pul vəsaitlərini əks etdirir. Ticarət hesabında olan pul vəsaitləri fond bazarında qiymətli kağızların alqı-satqısı üçün istifadə olunur.

***Ticarət və digər debitor borclar.*** Ticarət və digər debitor borclar broker fəaliyyəti və Qrup tərəfindən göstərilmiş portfel idarəetməsi xidmətlərinə görə müştərilərdən alınacaq vəsaitlər üçün tanınır. Ticarət və digər debitor borcları ilkin olaraq ədalətli dəyərlə, sonra isə effektiv faiz metodundan istifadə etməklə amortizasiya olunmuş dəyərlə tanınır.

**3 Əsas uçot siyasəti (davamı)**

***İdarəetməyə verilmiş aktivlər*** – müştərilərə və sifarişçilərə məxsus olan və Qrupun müxtəlif hüquqlara sahib olduğu, aktiv və passiv şəkildə idarə olunan aktivlərdir. Bu aktivlər borc qiymətli kağızlar, pay qiymətli kağızlar və ya ticarət hesablarında olan pul vəsaitləri şəklində ola bilər.

31 dekabr 2020-ci il və 31 dekabr 2019-cu il tarixlərinə borc qiymətli kağızlara investisiyaların kateqoriyalar üzrə təhlili aşağıdakı cədvəldə göstərilir. Bütün bu investisiyalar borc qiymətli kağızlardan ibarətdir.

| | 31 dekabr 2020-ci il | 31 dekabr 2019-cu il |
|---|---|---|
| *Borc qiymətli kağızlar* | 35,177,212 | 125,369,838 |
| *Broker hesabında olan pul vəsaitləri* | 233,610 | 267,906 |
| **Cəmi borc qiymətli kağızlara investisiyalar** | **35,410,822** | **125,637,744** |

31 dekabr 2020-ci il tarixinə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin istiqrazları üzrə illik gəlirlilik dərəcəsi ödəmə müddətinə uyğun olaraq 5.76%-10.50% (31 dekabr 2019-cu il: 7.63%-9.34%) təşkil edir.

31 dekabr 2020-ci il və 31 dekabr 2019-cu il tarixlərinə ticarət üçün investisiyalar aşağıda göstərilir:

| | 31 dekabr 2020-ci il | 31 dekabr 2019-cu il |
|---|---|---|
| *Azərbaycan Respublikası Maliyyə Nazirliyinin istiqrazları* | 22,954,924 | 50,274,132 |
| *Azərbaycan Respublikası Mərkəzi Bankının notları* | 10,074,534 | 73,813,530 |
| *Korporativ istiqrazlar* | 2,147,754 | 1,282,177 |
| **Cəmi borc qiymətli kağızlara investisiyalar** | **35,177,212** | **125,369,838** |

Qrup tərəfindən saxlanılan istiqrazların əksəriyyəti dövlət zəmanəti ilə təmin olunmuş Azərbaycan Respublikası Maliyyə Nazirliyinin istiqrazlarından ibarətdir. Korporativ istiqrazlar da bank zəmanəti ilə təmin olunur.

| | 31 dekabr 2020-ci il | 31 dekabr 2019-cu il |
|---|---|---|
| Pay qiymətli kağızlar | 24,309 | 24,309 |
| **Cəmi pay qiymətli kağızlara investisiyalar** | **24,309** | **24,309** |

Bütün pay qiymətli kağızlar korporativ səhmlərdən ibarətdir və ticarət üçün qiymətli kağızlara aiddir.

**3 Əsas uçot siyasəti (davamı)**

***MZƏD kateqoriyasında ölçülən borc qiymətli kağızlar*** ədalətli dəyərlə tanınır ki, bu da, kredit riski ilə bağlı müvafiq silinmələri əks etdirir və Qrupun kredit riski barədə ən dəqiq məlumatı təqdim edir. Qrupun 31 dekabr 2020-ci il tarixinə MZƏD kateqoriyasında ölçülən 680,376 AZN (31 dekabr 2019-cu il: 266,903 AZN) məbləğində borc qiymətli kağızları Azərbaycan Respublikasında fəaliyyət göstərən şirkətlərin və ya dövlət müəssisələrinin səhmlərindən ibarətdir.

***MZƏD kateqoriyasında ölçülən pay qiymətli kağızlar*** korporativ səhmlərdən, ticarət üçün qiymətli kağızlardan və ilkin tanınma zamanı SMGƏD kateqoriyasına aid edilməyən digər pay qiymətli kağızlardan ibarətdir.

***Müştərilərə ödəniləcək vəsaitlər.*** Müştərilərə ödəniləcək vəsaitlər portfel idarəetməsi müqavilələri üçün tanınır və müştərilərin qiymətli kağızlar və / və ya pul vəsaitlərindən ibarət portfeli idarə etmək üçün Qrupa ötürdüyü anda yaranır. Müştərilər ilə müqavilələrə Qrupa ötürülmüş portfelin effektivliyindən asılı olaraq minimal gəlirlilik faizi və dəyişən icra öhdəliyi daxildir. Müştərilərə ödəniləcək vəsaitlər üzrə qalıqlara korporativ və fərdi müştərilər daxildir ki, 2020-ci ildə bunun 96%-ni korporativ müştərilər təşkil etmişdir (2019-cu il: 96%).

***Ticarət və digər debitor borclar.*** Ticarət və digər debitor borclar broker fəaliyyətinə görə əldə ediləcək vəsaitlər və Qrup tərəfindən aktivlərin idarə edilməsi xidmətlərinə görə müştərilərdən alınacaq məbləğlər üçün tanınır. Ticarət və digər debitor borclar ilkin olaraq ədalətli dəyərlə, sonra isə effektiv faiz metodundan istifadə etməklə amortizasiya olunmuş dəyərlə tanınır.

***Sair öhdəliklər.*** Sair öhdəliklər qarşı tərəfin müqavilə üzrə öz öhdəliklərini yerinə yetirdiyi zaman hesablanır və ilkin olaraq ədalətli dəyərlə, sonra isə effektiv faiz metodundan istifadə etməklə amortizasiya olunmuş dəyərlə tanınır.

***Mənfəət vergisi.*** Hazırkı konsolidə edilmiş maliyyə hesabatlarında mənfəət vergisi qüvvədə olan və ya hesabat dövrünün sonuna qüvvəyə minmiş qanunvericiliyin tələblərinə uyğun olaraq əks etdirilir. Mənfəət vergisi xərci cari və təxirə salınmış mənfəət vergisindən ibarət olub, il üzrə mənfəət və ya zərərdə tanınır. Lakin həmin və ya başqa dövrdə sair məcmu gəlirdə və ya birbaşa kapitalda tanınan əməliyyatlara aid olan vergilər sair məcmu gəlirdə və ya birbaşa kapitalda tanınır.

Cari vergilər cari və əvvəlki dövrlər üzrə vergiyə cəlb edilən mənfəət və ya zərər ilə əlaqədar vergi orqanlarına ödəniləcək və ya vergi orqanları tərəfindən geri qaytarılacaq məbləği təşkil edir. Vergiyə cəlb edilən mənfəət və ya zərər konsolidə edilmiş maliyyə hesabatlarının müvafiq vergi bəyannamələrinin təqdim olunmasından əvvəl təsdiqləndiyi halda təxmini göstəricilərə əsasən hesablanır. Mənfəət vergisindən başqa vergilər inzibati və sair əməliyyat xərcləri kimi qeydə alınır.

Təxirə salınmış mənfəət vergisi öhdəlik metodundan istifadə etməklə, aktiv və öhdəliklərin vergi bazası və maliyyə hesabatlarının hazırlanması məqsədləri üçün onların balans dəyəri arasında yaranan müvəqqəti fərqlər üçün hesablanır. İlkin uçot zamanı istisna hal olaraq, əgər əməliyyat maliyyə mənfəəti və vergiyə cəlb edilən mənfəətə təsir göstərmirsə, aktiv və öhdəliyin ilkin qeydə alınması nəticəsində yaranan müvəqqəti fərqlər üzrə təxirə salınmış vergi hesablanmır (müəssisələrin birləşməsi halları istisna olmaqla).

Təxirə salınmış vergi qalıqları qüvvədə olan və ya hesabat dövrünün sonunda qüvvəyə minmiş vergi dərəcələrinə əsasən müvəqqəti fərqlərin qaytarılacağı və ya keçmiş illərdən yığılmış vergi zərərlərinin istifadə ediləcəyi dövrdə tətbiq edilməli vergi dərəcələrindən istifadə etməklə hesablanır.

Gəlirdən çıxılan müvəqqəti fərqlər üzrə təxirə salınmış vergi aktivləri və keçmiş illərin vergi zərərləri müvəqqəti fərqlərin geri qaytarılması, kifayət qədər vergi tutulan gələcək gəlirlərin yaranması və bu gəlirlər üzrə çıxılmaların istifadə edilməsi ehtimalını nəzərə alaraq tanınır.

**3 Əsas uçot siyasəti (davamı)**

***Nizamnamə kapitalı.*** Qrupun nizamnamə kapitalı Nizamnamədə göstərilən kapitaldan ibarətdir.

***Kapital qoyuluşu.*** Kapital qoyuluşu Qrupun əməliyyat fəaliyyətini maliyyələşdirmək məqsədi ilə ilkin olaraq təsisçilər tərəfindən kredit şəklində hissə-hissə təqdim edilmiş nağd pul qoyuluşlarından ibarətdir. Təsisçilər bu vəsaitləri Qrupun kapitalına yönəltmiş və onun geri qaytarılması ilə bağlı iddiası yoxdur. Hesabat tarixinə həmin məbləğ nizamnamə kapitalının bir hissəsi kimi qeydə alınmamışdır.

***Gəlirin tanınması.*** Gəlir Qrupun adi fəaliyyəti nəticəsində yaranır. Gəlir əməliyyat qiyməti məbləğində tanınır. Əməliyyat qiyməti vəd edilmiş xidmətlər üzrə nəzarətin alıcıya ötürülməsi müqabilində üçüncü tərəflərin adından alınan məbləğlər istisna olmaqla, Qrup tərəfindən əldə ediləcəyi gözlənilən ödənişlərdir.

*Portfelin idarə edilməsindən gəlir.* Qrup portfelin idarə edilməsi xidmətləri məqsədilə müştərilərdən 1-3 il müddətinə idarə olunmaq üçün qiymətli kağızlar və / və ya pul vəsaitləri formasında investisiya portfeli əldə edir. Portfelin idarə edilməsi xidmətlərindən əldə olunan gəlir iki hissəyə bölünür.

1) İdarəçilik komissiyası. İdarəçilik komissiyası portfelin idarə olunması üçün əvvəlcədən razılaşdırılmış sabit dərəcədir. İdarəçilik komissiyası aylıq hesablanır və dövr ərzində Şirkət tərəfindən əldə edilir. İdarəçilik komissiyası adətən bir müştəri üçün idarə olunan aktivlərin ümumi səviyyəsinə və ya ayrı-ayrı aktivlərin növünə və tərzinə görə komissiya cədvəllərinə uyğun hesablanır.

2) Perfomans komissiyası. Performans komissiyası portfelin idarə edilməsi üçün müştəridən əldə edilən portfelin nəticələrinə görə dəyişkən məbləğdir. Perfomans komissiyası adətən portfelin bir baza indeksindən və ya eyni qrupun perfomansından artıq olan nisbəti kimi hesablanır. Performans komissiyasında təbii artım əsasən idarəetməyə verilmiş xalis aktivlər üzrə yeni daxilolmalardan asılıdır. Əsas amillər hesab olunan ümumi bazar şərtlərindən qlobal maliyyə aktivlərinin artması əhəmiyyətli uzunmüddətli iqtisadi faktor kimi çıxış edir.

3) Gəlir icra öhdəliyi yerinə yetirildiyi zaman, yəni mal və ya xidmətlər üzrə nəzarət müştəriyə ötürüldükdə tanınır. İcra öhdəliyi dövr ərzində və ya müəyyən zaman anında yerinə yetirilə bilər. Dövr ərzində yerinə yetirilmiş icra öhdəliyindən əldə olunan gəlir mal və xidmətlərin müştəriyə ötürülməsi ilə ölçülən icra öhdəliyinin yerinə yetirilmə səviyyəsi ilə tanınır. Müəyyən zaman anında yerinə yetirilən icra öhdəliyindən əldə olunan gəlir vəd edilmiş mal və ya xidmətlər üzrə nəzarət müştəriyə keçdiyi anda tanınır.

4) Perfomans komissiyası qazanıldığı və müəyyən edildiyi dövrdə tanınır. Performans komissiyası bütün qeyri-müəyyənliklər həll olunana və əvvəlki dövrdə qeydə alınmış məbləğlərin geri qaytarılma ehtimalı olmayana qədər məhdudlaşdırılır. Portfelin perfomansı qənaətbəxş səviyyədə olmadıqda və ya müsbət nəticə göstərə bilmədikdə, gələcək illərin perfomansı komissiya əldə olunana qədər adətən bu kəsirdən yüksək olmalıdır.

Dövr ərzində və müəyyən zaman anında perfomans öhdəliyinin gəlirlər üzrə bölüşdürülməsi Qeyd 15-də göstərilir.

*Broker fəaliyyətindən gəlir.* Qrup qarşı tərəflər adından qiymətli kağızların alqı-satqısını həyata keçirərkən agent kimi çıxış edərək, qarşı tərəflərə broker xidmətləri göstərir. Broker fəaliyyətindən əldə edilən gəlir əqd məbləğinin faizi kimi hesablanır və müəyyən zaman anında qazanılır. Broker fəaliyyətindən əldə edilən gəlirlərə yalnız göstərilmiş xidmətlər üzrə marja daxildir və müəyyən komissiya xərcləri çıxılmaqla göstərilir.

***İcarə öhdəlikləri.*** İcarə müqaviləsi üzrə yaranan öhdəliklər ilkin olaraq cari dəyərlə qiymətləndirilir. İcarə öhdəliklərinə aşağıdakı icarə ödənişlərinin xalis cari dəyəri daxildir:

- icarə üzrə alınacaq həvəsləndirici ödənişlər çıxılmaqla, sabit ödənişlər (mahiyyətcə sabit ödənişlər daxil olmaqla),
- ilkin olaraq icarə müddətinin başlanma tarixinə mövcud olan indeks və ya dərəcələrdən istifadə etməklə qiymətləndirilən indeks və ya dərəcələrdən asılı olan dəyişkən icarə ödənişləri,

## 3 Əsas uçot siyasəti (davamı)

- icarə müddəti ərzində Qrup icarəni ləğv etmə hüququnu istifadə edərsə, icarənin ləğv edilməsi ilə bağlı cərimə ödənişləri.

Qrupun icarəyə götürdüyü ofis sahəsinin icarəsi müqaviləsində icarə müddətinin uzadılması seçimi nəzərdə tutulur. Bu, Qrupun fəaliyyətində istifadə olunan aktivlərin idarə olunmasında əməliyyat çevilkiyinin artırılması üçün tətbiq olunur. İcarə müddətinin uzadılması hüququ yalnız müqavilənin müddətinin uzadılacağına əsaslandırılmış şəkildə əminlik olduqda icarə müddətinə daxil edilir. İcarə müddətinin uzadılmasına dair əsaslandırılmış əminlik olduğu halda, uzadılma hüququnun istifadəsi ilə bağlı aparılacaq icarə ödənişləri də öhdəliyin qiymətləndirilməsinə daxil edilir. İcarə ödənişləri 7.84%-lik borc kapitalı üzrə artan faiz dərəcəsi ilə diskontlaşdırılır. İcarə ödənişləri əsas və maliyyə xərclərinə ayrılır. Maliyyə xərcləri hər bir dövr üçün öhdəliyin qalığı üzrə daimi olaraq müntəzəm faiz dərəcəsini təmin etmək üçün ümumi icarə müddətində mənfəət və ya zərərdə tanınır.

***İstifadə hüquqlu aktivlər.*** Qrup ofis sahəsi icarəyə götürür. İcarə müqavilələrinə icarə və qeyri-icarə komponentləri daxil edilə bilər. Qrup icarə müqaviləsi üzrə ödənişləri icarə və qeyri-icarə komponentləri arasında ayrıca nisbi qiymət əsasında ayırır. İcarə müqaviləsi üzrə yaranan aktivlər ilkin olaraq cari dəyərlə qiymətləndirilir. İstifadə hüquqlu aktivlər aşağıdakılar nəzərə alınmaqla, ilkin dəyərlə qiymətləndirilir:

- icarə öhdəliyinin ilkin qiymətləndirmə məbləği;
- icarə üzrə həvəsləndirici ödənişlər çıxılmaqla, icarə müqaviləsinin başlanma tarixindən əvvəl aparılmış bütün icarə ödənişləri;
- bütün ilkin birbaşa xərclər, və
- aktivin icarə müqaviləsinin şərtlərinə görə tələb olunan vəziyyətə qaytarılması xərcləri.

İstifadə hüquqlu aktivlər adətən onların faydalı istifadə və ya icarə müddətləri ərzində (bu müddətlərdən hansı daha tez başa çatarsa) düz xətt metodu ilə amortizasiya edilir. Qrup alış hüququnun icrasına əsaslandırılmış şəkildə əmin olduqda, istifadə hüquqlu aktivi əsas aktivin faydalı istifadə müddəti ərzində amortizasiya edir. İstifadə hüquqlu aktivlərin amortizasiyası 2 il ərzində düz xətt metodu ilə hesablanır.

Qrup aktivin mülkiyyət hüququ ilə bağlı bütün risk və faydaların əsas etibarilə icarəyə verəndən Qrupa ötürülməsini nəzərdə tutmayan icarə müqaviləsində icarəyə götürən qismində çıxış etdikdə, ümumi icarə ödənişləri icarə müddəti ərzində düz xətt metoduna əsasən il üzrə mənfəət və ya zərərdə (icarə xərcləri kimi) tanınır. Əməliyyat icarəsinə ofis sahəsinin icarəsi daxildir.

## 4 Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr

Qrup konsolidə edilmiş maliyyə hesabatlarında tanınan məbləğlərə və aktiv və öhdəliklərin balans dəyərinə növbəti maliyyə ili ərzində təsir göstərən ehtimallar və mülahizələr irəli sürür. Həmin ehtimallar və mülahizələr müntəzəm olaraq rəhbərliyin təcrübəsinə və digər amillərə, həmçinin rəhbərliyin fikrincə mövcud şəraitə uyğun olaraq əsaslandırılmış gələcək hadisələr üzrə təxminlərə əsasən təhlil edilir. Uçot siyasətinin tətbiqi zamanı rəhbərlik, həmçin peşəkar ehtimallar və təxminlər irəli sürür. Konsolidə edilmiş maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və növbəti maliyyə ili ərzində aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb olan təxminlərə aşağıdakılar daxildir:

***Biznes modelin qiymətləndirilməsi.*** Maliyyə aktivləri biznes model əsasında təsnifləşdirilir. Biznes modeli qiymətləndirərkən rəhbərlik birləşmə səviyyəsini və maliyyə alətləri üzrə portfelləri müəyyən etmək üçün mülahizələrdən istifadə etmişdir. Satış əməliyyatlarını qiymətləndirərkən Qrup onların əvvəlki dövrlərdə baş vermə tezliyini, müddətini və dəyərini, satış səbəblərini və gələcək satışlar ilə bağlı gözləntiləri nəzərə alır. Kredit keyfiyyətinin pisləşməsinə görə potensial zərərlərin azaldılmasına yönəldilmiş satış əməliyyatları "pul axınlarının əldə edilməsi" biznes modelinə uyğun hesab edilir.

Kredit riskinin idarə olunması tədbirləri ilə bağlı olmayan ödəmə müddətinə qədər həyata keçirilən digər satışlar da nadir hallarda baş verməsi və dəyərinin ayrılıqda və ya məcmu olaraq əhəmiyyətli olmaması şərtilə, "pul axınlarının əldə edilməsi" biznes modelinə uyğun hesab edilir. Qrup satış əməliyyatlarının

## 4 Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr (davamı)

əhəmiyyətini satışların həcmi ilə portfelin orta müddəti ərzində biznes modeli qiymətləndirilən portfelin dəyərini müqayisə etməklə qiymətləndirir. Bundan əlavə, yalnız "stress" ssenarilərdə və ya Qrupun nəzarətində olmayan, təkrar baş verməyən və Qrup tərəfindən proqnozalşdırıla bilməyən ayrıca hadisə ilə bağlı gözlənilən maliyyə aktivlərinin satışı biznes modelin məqsədi ilə əlaqəli olmayan satış əməliyyatı hesab olunur və müvafiq maliyyə aktivlərinin təsnifatına təsir göstərmir.

Biznes modelin müəyyən edilməsi zamanı Qrupun nəzərə aldığı amillərə Qrupun strategiyası, portfelin məqsədi və tərkibi, müvafiq aktivlər üzrə pul axınlarının əldə edilməsi ilə bağlı keçmiş təcrübə, aktivlər üzrə gəlirliliyin qiymətləndirilməsi üsulları və portfelin idarə edilməsi menecerlərinə ödənişlərin sxemi daxildir.

"Pul axınlarının əldə edilməsi və satılması" biznes modelində aktivlərin pul axınlarının əldə edilməsi üçün saxlanılması nəzərdə tutulsa da, aktivlərin biznes modelin məqsədlərinə (likvidlik ehtiyaclarının idarə olunması, müəyyən faiz gəlirlərinin əldə edilməsi və ya maliyyə aktivlərinin müddətinin həmin aktivlərin maliyyələşdirdiyi öhdəliklərin müddəti ilə uyğunlaşdırılması) nail olmaq üçün satışı onun tərkib hissəsi hesab edilir.

Digər kateqoriyaya əsasən satış vasitəsilə mənfəət əldə etmək üçün pul axınlarının reallaşdırılması məqsədilə idarə olunan maliyyə aktivləri üzrə portfellər daxildir. Bu biznes model adətən müqavilədə nəzərdə tutulan pul axınlarının əldə edilməsi ilə əlaqəlidir.

***İcarə müddətinin müəyyən edilməsi.*** Qrup müqaviləyə xitam verilməsi ilə bağlı bir tərəfin digərinə 3 ay əvvəl hər hansı bildiriş göndərməyəcəyi halda avtomatik olaraq yenilənən müddətli müqavilələr əsasında üçüncü tərəflərdən ofis sahəsi icarəyə götürür. Qrup belə müqavilələr üzrə ləğv etmə hüququ olmayan icarə müddətini müəyyən edərkən müqavilələrə xitam veriləcəyi halda tətbiq ediləcək cərimələri, o cümlədən icarəyə götürülmüş əmlakın əsaslı təmiri, yerdəyişmə xərcləri və ya binaların Qrupun fəaliyyəti üçün əhəmiyyəti kimi iqtisadi antistimulları nəzərə alır. Bunun nəticəsində ofis sahəsinin icarə müddəti 2 il müəyyən edilmişdir.

***Təxirə salınmış vergi aktivinin tanınması.*** Tanınmış təxirə salınmış xalis vergi aktivi vergiyə cəlb olunan gəlirdən gələcək çıxılmalar vasitəsilə əldə olunan mənfəət vergisi məbləğlərindən ibarətdir və konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabatda qeydə alınır. Təxirə salınmış mənfəət vergisi aktivi müvafiq vergi faydasının realizasiya oluna biləcəyi zaman qeydə alınır. Bu, gələcəkdə bərpa edilməsi gözlənilən müvəqqəti fərqlərdən və çıxılmaların istifadə edilməsi üçün gələcəkdə kifayət qədər vergiyə cəlb edilən mənfəətin mövcudluğundan asılıdır. Vergiyə cəlb olunan gələcək mənfəətin və gələcəkdə yaranması ehtimal edilən vergi faydası məbləğinin müəyyən edilməsi rəhbərlik tərəfindən hazırlanmış ortamüddətli biznes planına və onun ekstrapolyasiya nəticələrinə əsaslanır. Biznes-plan rəhbərliyin şəraitə uyğun olan təxminlərinə əsaslanır.

## 5 Ədalətli dəyər haqqında açıqlamalar

Ədalətli dəyərin qiymətləndirilməsi nəticələri aşağıda göstərildiyi kimi ədalətli dəyər iyerarxiyasının səviyyələrinə görə təhlil edilir: (i) 1-ci səviyyəyə oxşar aktiv və öhdəliklər üçün fəal bazarlarda kotirovka olunan qiymətlərlə qiymətləndirmələr (təshih edilməmiş) (ii) 2-ci səviyyəyə aktiv və ya öhdəlik üçün birbaşa (yəni, qiymətlər) və ya dolayısı ilə (yəni, qiymətlərdən yaranan) müşahidə edilə bilən ilkin əhəmiyyətli məlumatların istifadə edildiyi qiymətləndirmə üsulları vasitəsilə əldə edilən qiymətləndirmələr və (iii) 3-cü səviyyəyə müşahidə edilən bazar məlumatlarına əsaslanmayan qiymətləndirmələr (müşahidə edilməyən ilkin məlumatlar) daxildir. Maliyyə alətlərini ədalətli dəyərlə qiymətləndirmə iyerarxiyalarına bölmək üçün rəhbərlik peşəkar mülahizələr irəli sürür. Ədalətli dəyərlə qiymətləndirmə üçün əhəmiyyətli dərəcədə düzəlişlər tələb edən müşahidə edilə bilən məlumatlardan istifadə edildikdə, bu qiymətləndirmə 3-cü Səviyyəyə aid edilir. İstifadə edilən məlumatların əhəmiyyətliliyi bütövlükdə ədalətli dəyərin qiymətləndirilməsi ilə ölçülür.

## 5 Ədalətli dəyər haqqında açıqlamalar (davamı)

***Təkrar ədalətli dəyər qiymətləndirmələri***

Təkrar ədalətli dəyər qiymətləndirmələri maliyyə vəziyyəti haqqında hesabatda hər bir hesabat dövrünün sonunda mühasibat uçotu standartları ilə tələb edilən və ya icazə verilən qiymətləndirmələrdir:

Təkrar ədalətli dəyər qiymətləndirmələrinin aid edildiyi ədalətli dəyər iyerarxiyalarının səviyyəsi aşağıda göstərilir:

| | 2020-ci il | | |
|---|---|---|---|
| | 1-ci Səviyyə | 2-ci Səviyyə | Cəmi |
| **MALİYYƏ AKTİVLƏRİ** | | | |
| ***Borc qiymətli kağızlara investisiyalar*** | | | |
| - AR Maliyyə Nazirliyinin istiqrazları | - | 680,376 | 680,376 |
| ***Pay qiymətli kağızlara investisiyalar*** | | | |
| - Korporativ səhmlər | - | 616,015 | 616,015 |
| **31 DEKABR TARİXİNƏ CƏMİ TƏKRAR ƏDALƏTLİ DƏYƏRLƏ QİYMƏTLƏNDİRİLƏN AKTİVLƏR** | - | **1,296,391** | **1,296,391** |

| | 2019-cu il | | |
|---|---|---|---|
| | 1-ci Səviyyə | 2-ci Səviyyə | Cəmi |
| **MALİYYƏ AKTİVLƏRİ** | | | |
| ***Borc qiymətli kağızlara investisiyalar*** | | | |
| - AR Maliyyə Nazirliyinin istiqrazları | - | 243,894 | 243,894 |
| - Korporativ istiqrazlar | 23,009 | - | 23,009 |
| ***Pay qiymətli kağızlara investisiyalar*** | | | |
| - Korporativ səhmlər | - | 615,192 | 615,192 |
| **31 DEKABR TARİXİNƏ CƏMİ TƏKRAR ƏDALƏTLİ DƏYƏRLƏ QİYMƏTLƏNDİRİLƏN AKTİVLƏR** | **23,009** | **859,086** | **882,095** |

Pul vəsaitləri və onların ekvivalentləri, eləcə də ticarət debitor borcları ədalətli dəyərlə qiymətləndirilməyən, lakin ədalətli dəyəri açıqlanan maliyyə aktivləridir. Hazırkı maliyyə hesabatlarındakı sətir maddələri müvafiq olaraq ədalətli dəyər iyerarxiyasının 1-ci və 3-cü Səviyyələrinə aid edilir.

## 6 Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi

Qrupun fəaliyyəti üçün münasib olan 31 dekabr 2020-ci il tarixində başa çatmış hesabat dövrlərinə şamil olunan bütün yeni və yenidən işlənilmiş standartları və onlara dair şərhləri qəbul etmişdir.
Digər standartlar, düzəlişlər və şərhlər 2020-ci ildə ilk dəfə tətbiq edilmiş lakin Qrupun maliyyə hesabatlarına təsir göstərməmişdir. Qrup buraxılmış, lakin hələ qüvvəyə minməmiş heç bir standartı, şərhi və ya düzəlişi erkən tətbiq etməmişdir.

**BMHŞK 23 "Gəlir vergisi ilə bağlı yanaşmalarda qeyri-müəyyənlik"**, 12 saylı MUBS-a əsasən gəlir vergisi ilə bağlı metodlarda qeyri-müəyyənlik olduqda, vergi tutulan mənfəətin (vergi zərərinin), vergi bazalarının, istifadə edilməmiş vergi zərərlərinin, istifadə edilməmiş vergi kreditlərinin və vergi dərəcələrinin müəyyənləşdirilməsini nəzərdə tutur. Bu, xüsusi olaraq aşağıdakıları nəzərdə tutur:

- vergi ilə bağlı yanaşmaların kollektiv olaraq nəzərə alınması;
- vergi orqanlarının təftişlərinə dair fərziyyələr;
- vergi tutulan mənfəətin (vergi zərərinin), vergi bazalarının, istifadə edilməmiş vergi zərərlərinin, istifadə edilməmiş vergi kreditlərinin və vergi dərəcələrinin müəyyən edilməsi; və
- fakt və vəziyyətlərə dəyişikliklərin təsiri.

**2015-2017-ci illəri əhatə edən dövr üzrə MHBS-lərə illik düzəlişlər** – Beynəlxalq Mühasibat Uçotu Standartları Şurasının ("BMUSŞ") illik təkmilləşdirilməsi layihəsi nəticəsində dörd Beynəlxalq Maliyyə Hesabatı Standartlarına (MHBS) düzəlişləri əks etdirir.

| Standart | Düzəlişin mövzusu |
|---|---|
| MHBS 3 "Biznes Kombinasiyaları" və MHBS 11 "Birgə Razılaşmalar" | MHBS 3-ə düzəlişlər, müəssisə müştərək əməliyyat olan bir biznes üzərində nəzarət əldə etdikdə, həmin bizneslə bağlı əvvəldən formalaşmış investisiyanın yenidən qiymətləndirilməsinin zəruri olduğunu aydınlaşdırır. MHBS 11-ə düzəlişlər, müəssisə müştərək əməliyyat olan bir biznes üzərində nəzarət əldə etdikdə, həmin biznesla bağlı əvvəldən formalaşmış investisiyasının yenidən qiymətləndirilməsinə ehtiyac olmadığını aydınlaşdırır. |
| MUBS 12 "Mənfəət Vergisi" | Düzəlişlər, dividendlərin verilməsi ilə bağlı bütün gəlir vergisi nəticələri (verilməsi ilə bağlı) verginin necə yaranmasından asılı olmayaraq, mənfəət və ya zərərdə tanınmalıdır. |
| MUBS 23 "Borc üzrə Xərclər" | Düzəlişlər, müvafiq aktivin, nəzərdə tutulduğu istifadəsi yaxud satış üçün hazır olduqdan sonra hər hansı spesifik borc, ödənilməmiş qaldıqda, müəssisə ümumi borclarla bağlı kaptallaşdırma dərəcəsini hesablayan zaman həmin borc qalığı, müəssisənin ümumiyyətlə borc aldığı maliyyə vəsaitlərinin bir hissəsinə çevrilir. |

**"İşçilərin Mükafatlandırılması Paketləri üzrə Düzəliş, Məhdudlaşdırılma və ya Hesablamalar" üzrə 19 saylı MUBS-a edilən Düzəlişlər** – Dəyişikliklər, keçmiş xidmət dəyəri (ya da hesablama üzrə mənfəət və ya zərəri) müəyyən edilmiş təqaüd öhdəliklərinin (aktivin) yenilənmiş ehtimallardan istifadə edərək ölçülməsi və təklif olunan faydaları və paket aktivlərini müvafiq dəyişiklikdən əvvəl və sonra müqayisə etməklə (məhdudlaşdırılma və ya hesablanmalar), lakin aktivin maksimal həddinin təsirini nəzərə almamaqla ölçülür (müəyyən edilmiş təqaüd paketi müsbət saldo olduqda yarana bilər). BMUS 19-a əsasən, paketin düzəlişindən (məhdudlaşdırılma və ya hesablanmalar) yarana biləcək aktivin maksimal həddinin təsirinin dəyişməsi ikinci mərhələdə müəyyənləşdirilir və digər məcmu gəlirdə normal qaydada tanınır.

## 6 Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi (davamı)

Mövcud xidmət xərcinin ölçülməsinə aid olan paraqraflar və müəyyən edilmiş xalis təqaüd öhdəlikləri (aktiv) üzrə xalis faizlərə də düzəliş edilmişdir. İndi müəssisədən plana dəyişikliklər edildikdən sonra hesabat dövrünün qalan hissəsi üçün cari xidmət haqqını və dəqiq faizini müəyyən etmək üçün bu yenidən qiymətləndirmədən yenilənmiş ehtimallardan istifadə etmək tələb olunacaq. Xalis faiz dərəcəsi halında düzəlişlər aydınlaşdırır ki, planın dəyişməsindən sonrakı müddət üzrə xalis faiz dərəcəsi BMUS 19.99-da yenidən qiymətləndirilmiş xalis müəyyənləşdirilmiş təqaüd öhdəlikləri (aktiv) ilə yenidən qiymətləndirilmədə istifadə edilən diskont dərəcəsinin hasili şəklində hesablanır (həmçinin ianələrin təsiri və xalis müəyyənləşdirilmiş təqaüd öhdəlikləri nəzərə alınır (aktiv)).

Düzəlişlər prospektiv şəkildə tətbiq olunur. Onlar yalnız illik dövrün başlanğıcında və ya ondan sonrakı dövrdə BMUS 19-a ilk tətbiq edilmiş paket düzəlişləri, məhdudiyyətləri və hesablamalarına tətbiq olunur.

**MUBS 28 "Asılı və Birgə Müssisələrə İnvestisiya Qoyuluşları" standartına dəyişikliklər** – MUBSŞ, asılı təsərrüfat cəmiyyətlərində uzunmüddətli iştirak payına dair 28 saylı MUBS-ə düzəlişlər hazırlamışdır. Düzəlişə əsasən müəssisə, asılı təsərrüfat cəmiyyətində və ya birgə müəssisədə xalis investisiyanın bir hissəsini təşkil edən, lakin iştirak payı metodunun tətbiq olunmadığı asılı yaxud birgə müəssisədə uzunmüddətli mənfəətə 9 saylı MHBS-i tətbiq etməlidir. Düzəliş 1 yanvar 2019-cu il tarixində və ya ondan sonra başlayan illik dövrlər üçün qüvvəyə minir.

**MHBS 9 "Maliyyə Alətləri" standartına dəyişikliklər** – MUBSŞ, mənfi təzminat və maliyyə öhdəliklərinin dəyişdirilməsi ilə bağlı ödənilmiş avansların xüsusiyyətləri haqqında 9 saylı MHBS-ə dair dəyişiklikləri dərc etmişdir.

*Mənfi Təzminat ilə bağlı Ödənilmiş Avansların Xüsusiyyətləri* – mənfi təzminat ödəmələri üzrə belə, amortizasiya olunmuş dəyərdə ölçməyə icazə vermək məqsədilə xitam hüquqlarına dair 9 saylı MHBS-in mövcud tələbini dəyişir. MUBSŞ həmçinin, müəssisənin dəyişiklik və ya dəyişdirmə tarixində mənfəət və ya zərərdə dəyişiklik və ya mübadilə nəticəsində yaranan maliyyə öhdəliyinin amortizasiya edilmiş dəyərinə hər hansı düzəlişin tanınmasını aydınlaşdırır.

**MHBS 16 "İcarələr"**, MHBS məruzəçisinin icarələri tanıma, ölçmə, təqdim etmə və açıqlama formasını müəyyən edir. Standart, icarə müddəti 12 ay və ya daha az olarsa, yaxud baza aktivinin dəyəri az olarsa, bütün icarələr üzrə aktiv və öhdəlikləri tanımaq üçün icarəçidən tələb olunan vahid mühasibat uçotu modelini təmin edir. İcarəyə verən MHBS 16-nın yanaşması ilə icarələri əməliyyat və ya maliyyə icarələri olaraq təsnif etməyə davam edir və icarəyə verənin mühasibat uçotu bu sahədə daha əvvəlki standart sayılan MUBS 17-yə nisbətən əsaslı dəyişikliklərə məruz qalmır.

MHBS 16 "İcarələr", 13 yanvar 2016-cı il tarixində dərc olunmuşdur və 1 yanvar 2019-cu il tarixində və həmin tarixdən sonra başlayan illik hesabat dövrlərinə tətbiq edilir.

16 saylı MHBS-yə əsasən tanınmış aktivlərdən istifadə hüququ, "Aktivlərin Dəyərsizləşməsi" adlı 36 saylı MUBS-a uyğun olaraq dəyərsizləşmə üzrə təhlil edilməlidir. Bu əhəmiyyətli icarə müqavilələri üzrə ehtiyat tanınması üçün əvvəlki tələbi əvəz edəcək.

Qısa-müddətli icarələr (12 aylıq və ya daha az) və aşağı dəyərli aktivlər (məsələn fərdi kompüterlər və ofis mebeli) üçün Qrup 16 saylı MHBS-nin icazə verdiyi formada icarə xərcini düz-xətt metodu əsasında tanımağı seçmişdir.

**MHBS 3 Müəssisələrin Birləşməsi. "Müəssisə" tərifinə edilən Düzəliş** – Düzəlişlər şirkətlərə əldə edilmiş aktivlərin müəssisə və ya aktivlər qrupu olduğunu müəyyənləşdirməyə kömək edəcək.

Edilmiş düzəliş biznes xidmətlərinin nəticələrinin müştəriləri məhsul və xidmətlər ilə təmin etmək olduğunu vurğulayır. Halbuki əvvəlki anlayışa əsasən, biznes anlayışı dividend şəklində, daha aşağı

**6 Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi (davamı)**

xərclərə və ya investorlara və digərlərinə iqtisadi mənfəət təmin etmək məqsədi daşıyırdı. Alınan aktivin biznes və ya aktivlər qrupu olduğunu fərqləndirmək vacibdir, çünki alıcı qudvili yalnız biznes alarkən tanıyır. Dəyişikliklərə əsasən, "biznes"-in yeni tərifi müştərilərə məhsul və ya xidmətlərin göstərilməsi, investisiya gəlirinin yaranması (məsələn, dividendlər və faizlər) və ya adi fəaliyyətdən digər gəlirlər yaranmasının ayrılmaz tərkibidir.
Şirkətlər, biznesin yenilənmiş tərifini 2020-ci il yanvarın 1-də və ya ondan sonra baş verən satınalmalara tətbiq etməlidirlər. Daha əvvəl tətbiq edilməsinə icazə verilir.

**"Əhəmiyyətlilik" anlayışının yeni tərifi** – MUBSŞ şirkətlərin əhəmiyyətliliklə bağlı qərarları daha asan verməsi üçün əhəmiyyətlilik prinsipinə düzəlişlər dərc etmişdir. Yeni dəyişikliklər 1 saylı BMUS "Maliyyə Hesabatlarının Təqdimatı" və 8 saylı BMUS *"Mühasibat Uçotu Qaydaları, Uçot Ehtimallarındakı Dəyişikliklər və Xətalar"*-a şamil edilir.

Dəyişikliklər əhəmiyyətliliyin tərifini və bu günə qədər MHBS-nin digər standartlarında göstərilmiş olan əhəmiyyətlilik prinsiplərinin tətbiqi ilə bağlı təlimatları da hesabat hazırlayanlar üçün aydınlaşdırır. Yeni tərifə əsasən, məlumat o zaman əhəmiyyətli sayılır ki, onun gizlədilməsi, təhrif edilməsi və ya dəyişdirilməsi maliyyə hesabatlarını ümumi məqsədlər üçün istifadə edən əsas tərəflərin qərarlarına təsir etməsi ehtimal edilir və bu məlumat hesabat hazırlayan konkret müəssisə üzrə maliyyə məlumatı xarakterinə malikdir.
Dəyişikliklər 1 yanvar 2020-ci il tarixindən qüvvədədir. Erkən tətbiqinə icazə verilir.

Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (BMUSŞ), Banklararası təklif olunan faiz həddi ("İBOR") üzrə aparılan islahatların maliyyə hesabatlılığı üzrə yarana biləcək potensial təsirinə cavab olaraq, "Baza Faiz Dərəcəsi İslahatı"-nı (9 saylı MHBS, 39 saylı BMUS və 7 saylı MHBS-ə edilmiş Düzəlişləri") dərc etmişdir.
Baza faiz dərəcəsi islahatı aşağıdakı dəyişiklikləri nəzərdə tutur:

- islahat nəticəsində müəssisələrin, hedc olunmuş pul axınlarının və hedcinq aləti üzrə pul axınlarının əsaslandığı baza faiz dərəcəsinin dəyişilməyəcəyini ehtimal edərək, tətbiq ediləcək hedcinq uçotu üzrə bəzi tələblərin yenidən müəyyənləşdirilməsi;
- baza faiz dərəcəsi islahatının birbaşa təsir etdiyi bütün hedcinq münasibətləri üçün məcburidir;
- baza faiz dərəcəsi islahatı nəticəsində yaranacaq digər nəticələrin həlli üçün nəzərdə tutulmamışdır (əgər hedcinq münasibətləri düzəlişlərdə göstərilməmiş səbəblər nəticəsində, hedcinq uçotu tələblərinə cavab vermirsə, hedcinq uçotunun dayandırılması tələb olunur); və
- düzəlişlərin müəssisələrin hedcinq münasibətlərinə hansı dərəcədə təsir göstərməsi barədə xüsusi açıqlamaları tələb etmək.

Düzəlişlər 1 yanvar 2020-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvədədir və retrospektiv şəkildə tətbiq olunmalıdır. Düzəlişlərin erkən tətbiqinə icazə verilir.

**MHBS 17 "Sığorta müqavilələri"** 2017-ci ilin may ayında verilmiş və 4 saylı MHBS "Sığorta müqavilələri"-ni əvəz edir. Yeni standart sığorta müqavilələrinin tanınması, ölçülməsi, təqdim edilməsi və açıqlanması prinsiplərini müəyyən edir. Müəssisə, buraxdığı təkrarsığorta müqavilələri də daxil olmaqla sığorta müqavilələrinə; əlində olan təkrarsığorta müqavilələrinə; imtiyazlı iştirak xüsusiyyətləri ilə buraxdığı investisiya müqavilələrinə; müəssisənin bağladığı sığorta müqavilərinə MHBS 17 "Sığorta müqavilələri"-ni tətbiq etməlidir.

MHBS 17, 2021-ci il yanvarın 1-də və ya ondan sonra başlayan illik hesabat dövrləri üçün qüvvədədir.
MHBS 15 "Müştərilərlə Müqavilələrdən Əldə Edilən Gəlir" və 9 saylı MHBS "Maliyyə Alətləri" standartları ilə birlikdə icazə verilir.

**Öhdəliklərin təsnifatına aydınlıq gətirilməsi ilə bağlı 1 saylı MUBS üzrə Düzəlişlər** – 2020-ci il yanvar ayında MUBSŞ "Cari və Uzunmüddətli olmaqla, Öhdəliklərin Təsnifatı (1 saylı MUBS üzrə Düzəlişlər)" dərc etmişdir. Düzəlişlər, öhdəliklərin 1 saylı MUBS-a əsasən, hesabat tarixinə müqavilə razılaşmaları üzrə

## 6 Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi (davamı)

təsnifatına daha ümumi yanaşma təklif edir. Öhdəliklərin cari və uzunmüddətli olmaqla təsnifatı üzrə düzəlişlər (1 saylı BMUS üzrə Düzəlişlər) aktiv, öhdəlik üzrə gəlirlərin və ya xərclərin tanınma müddətinə və ya məbləğinə, eləcə də bu anlayışlar üzrə müəssisənin təqdim etdiyi açıqlamalara deyil, yalnız öhdəliklərin maliyyə vəziyyəti haqqında hesabatdakı təqdimatına təsir edir.

Düzəlişlər 1 yanvar 2022-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvədədir və retrospektiv şəkildə tətbiq olunmalıdır. Düzəlişlərin erkən tətbiqinə icazə verilir.

**10 saylı MHBS "Konsolidə Edilmiş Maliyyə Hesabatları" və 28 saylı BMUS (düzəlişlər): "İnvestor və onun Asılı və ya Birgə Müəssisəsi arasında Aktivlərin Satışı və ya Ötürülməsi" –**
10 saylı MHBS və 28 saylı BMUS-a edilən düzəlişlər investor, onun asılı müəssisəsi və birgə müəssisə arasında aktivlərin satışı və ya ötürülməsi üzrə vəziyyəti ehtiva edir. Düzəlişlər xüsusi olaraq kapital metodu ilə konsolidasiya edilən əlaqəli və birgə müəssisələrlə biznes əməliyyatları aparmayan törəmə müəssisə üzərində nəzarətin itirilməsi ilə bağlı olan gəlir və zərərlərin, ana müəssisənin mənfəət və zərər hesabatında əlaqəsi olmayan investorun həmin əlaqəli və ya birgə müəssisədə olan payına düşən hissəyə müdaxilə etməmək şərtilə tanınmasını tələb edir. Eynilə, istənilən keçmiş törəmə müəssisədə (kapital metodu ilə konsolidasiya edilən assosiasiya və birgə müəssisəyə çevrildikdə) saxlanılan investisiyanın ədalətli dəyərlə yenidən ölçülməsindən irəli gələn gəlir və ya zərər yalnız əlaqəsi olmayan investorların yeni assosiasiya və ya birgə müəssisədəki payları müqabilində tanınır.

Düzəlişlərin qüvvəyə minmə tarixi hələ ki, MUBSŞ tərəfindən müəyyən edilməmişdir; lakin, düzəlişlərin erkən tətbiqinə icazə verilir.

## 7 Əlaqəli tərəflərlə əməliyyatlar və həmin əməliyyatlar üzrə qalıqlar

Tərəflər o zaman əlaqəli hesab olunur ki, onlar ümumi nəzarət altında olsun və ya tərəflərdən biri digərinə nəzarət etmək iqtidarında olsun və yaxud maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı məsələlərə dair qərar qəbul edərkən digər tərəfə əhəmiyyətli dərəcədə təsir göstərə bilsin və ya ona birgə nəzarət etsin. Əlaqəli tərəflərlə hər hansı mümkün münasibətlər nəzərdən keçirilərkən, həmin münasibətlərin mahiyyətinin onların hüquqi formasından üstünlüyü prinsipi tətbiq olunur.

***Əsas idarəedici heyətə ödənişlər.*** Əsas idarəedici heyət direktordan və direktor müavinlərindən ibarətdir.

Əsas idarəedici heyətə ödənişlər aşağıdakı cədvəldə göstərilir:

| | 2020-ci il | | 2019-cu il | |
|---|---|---|---|---|
| | **Xərclər** | **Hesablanmış öhdəlik** | **Xərclər** | **Hesablanmış öhdəlik** |
| *Qısamüddətli ödənişlər:* | | | | |
| - Əmək haqqı | 272,189 | 3,072 | 295,910 | 11,699 |
| - Qısamüddətli mükafatlar | 13,618 | - | - | - |
| **Əsas idarəedici heyətə cəmi ödənişlər** | **285,807** | **3,072** | **295,910** | **11,699** |

## 8 Əmlak və avadanlıqlar

| | İstifadə hüquqlu aktivlər | Kompüter və digər avadanlıqlar | Nəqliyyat vasitələri | Digər | Cəmi |
|---|---|---|---|---|---|
| 01 yanvar 2019-cu il tarixinə ilkin dəyər | - | 33,343 | 62,500 | 29,328 | 125,171 |
| Yığılmış köhnəlmə | - | (8,384) | (42,725) | (7,008) | (58,117) |
| **01 yanvar 2019-cu il tarixinə balans dəyəri** | **239,175** | **24,959** | **19,775** | **22,320** | **306,229** |
| Əlavələr | - | 1,430 | - | 3,210 | 4,640 |
| Silinmələr | - | - | (62,500) | - | (62,500) |
| Silinmiş aktivlər üzrə yığılmış köhnəlmə | - | - | 46,021 | - | 46,021 |
| İstifadə hüquqlu aktivlərin modifikasiyası | (59,636) | - | - | - | (59,636) |
| Köhnəlmə xərci | (115,356) | (6,418) | (3,296) | (10,258) | (135,328) |
| **31 dekabr 2019-cu il tarixinə balans dəyəri** | **64,183** | **19,971** | **-** | **15,272** | **99,426** |
| 31 dekabr 2019-cu il tarixinə ilkin dəyər | - | 34,773 | - | 32,538 | 67,311 |
| Yığılmış köhnəlmə | - | (14,802) | - | (17,266) | (32,068) |
| **31 dekabr 2019-cu il tarixinə balans dəyəri** | **64,183** | **19,971** | **-** | **15,272** | **99,426** |
| Əlavələr | 132,878 | - | - | - | **132,878** |
| Silinmələr | - | - | - | - | - |
| Köhnəlmə xərci | (64,183) | (4,993) | - | (9,985) | **(79,160)** |
| **31 dekabr 2020-ci il tarixinə balans dəyəri** | **132,878** | **14,978** | **-** | **5,287** | **153,143** |
| 31 dekabr 2020-ci il tarixinə ilkin dəyər | - | **34,773** | - | **32,538** | **67,310** |
| Yığılmış köhnəlmə | - | (19,795) | - | (27,251) | (47,045) |
| **31 dekabr 2020-ci il tarixinə balans dəyəri** | **132,878** | **14,978** | **-** | **5,287** | **153,143** |

Qrup ofis sahəsi icarəyə götürür. İcarə müqaviləsi adətən sabit müddətə bağlanır, lakin bu müddətin uzadılması seçimini də nəzərdə tutur. Müqavilələrə yalnız icarə komponentləri daxil ola bilər. İcarə müqavilələrində icarəyə verənin icarə predmeti olan aktivləri ilə bağlı təminat hüququndan başqa heç bir xüsusi şərt nəzərdə tutulmur. İcarə predemeti olan aktivlər kreditlər üzrə təminat kimi istifadə edilə bilməz. 31 dekabr 2018-ci il tarixinə qədər icarəyə götürülmüş aktivlər əməliyyat icarəsi kimi təsnifləşdirilmişdir.

## 8 Əmlak və avadanlıqlar (davamı)

01 yanvar 2019-cu il tarixindən etibarən icarə müqaviləsi icarəyə götürülmüş aktivin Qrupun istifadəsi üçün hazır olduğu tarixdən başlayaraq müvafiq öhdəliklə birlikdə istifadə hüquqlu aktivlər kimi tanınır. Qrup cari icarə müddəti başa çatdıqdan sonra icarə müqaviləsinin iki il uzadılacağına əsaslandırılmış şəkildə əmin olduğu üçün 31 dekabr 2020-ci il tarixinə 144 min AZN (diskontlaşdırılmamış) məbləğində gələcək potensial ödənişlər icarə öhdəliyinə daxil edilmişdir.İcarə müddəti icarənin uzadılması hüququ faktiki olaraq istifadə edildikdə və ya Qrup həmin hüququ istifadə etmək öhdəliyini üzərinə götürdükdə yenidən nəzərdən keçirilir. Əsaslandırılmış əminliyin qiymətləndirilməsi yalnız bu qiymətləndirməyə təsir edən və icarəyə götürənin nəzarət edə bildiyi əhəmiyyətli hadisə və ya şəraitdə əhəmiyyətli dəyişikliklər baş verdikdə yenidən nəzərdən keçirilir.

## 9 Qeyri-maddi aktivlər

| | Daxili imkanlar hesabına yaradılmış proqram təminatı | Alınmış lisenziyalar | Digər | Cəmi |
|---|---|---|---|---|
| 01 yanvar 2019-cu il tarixinə ilkin dəyər | - | 2,750 | 64,175 | 66,925 |
| Yığılmış amortizasiya | - | (946) | (20,634) | (21,580) |
| **01 yanvar 2019-cu il tarixinə balans dəyəri** | **-** | **1,804** | **43,541** | **45,345** |
| Əlavələr | 161,883 | - | - | 161,883 |
| Amortizasiya xərci | - | (180) | (5,189) | (5,369) |
| **31 dekabr 2019-cu il tarixinə balans dəyəri** | **161,883** | **1,624** | **38,352** | **201,859** |
| 31 dekabr 2019-cu il tarixinə ilkin dəyər | 161,883 | 2,750 | 64,175 | 228,808 |
| Yığılmış amortizasiya | - | (1,126) | (25,823) | (26,949) |
| **31 dekabr 2019-cu il tarixinə balans dəyəri** | **161,883** | **1,624** | **38,352** | **201,859** |
| Əlavələr | - | - | - | - |
| Amortizasiya xərci | (16,189) | (162) | (3,835) | (20,186) |
| **31 dekabr 2020-ci il tarixinə balans dəyəri** | **145,694** | **1,461** | **34,517** | **181,673** |
| 31 dekabr 2020-ci il tarixinə ilkin dəyər | 161,883 | 2,750 | 64,175 | 228,808 |
| Yığılmış amortizasiya | (16,189) | (1,289) | (29,658) | (47,135) |
| **31 dekabr 2020-ci il tarixinə balans dəyəri** | **145,694** | **1,461** | **34,517** | **181,673** |

Şirkət daxili əməliyyatları üçün "AFI treyder" proqram təminatı hazırlamışdır. Proqram təminatı 2019-cu ilin sonunda istifadəyə verilib və onun hazırlanması prosesində birbaşa iştirak etmiş Şirkət əməkdaşlarının əmək haqları məbləğində kapitallaşdırılıb. Bu qeyri-maddi aktiv üzrə sabit amortizasiya faiz dərəcəsi 10% müəyyən edilmişdir.

## 10 Ticarət və digər debitor borclar

| | 31 dekabr 2020-ci il | 31 dekabr 2019-cu il |
|---|---|---|
| Broker fəaliyyət üzrə ticarət debitor borcları | 88,930 | 133,457 |
| Portfel idarəetməsi üzrə ticarət debitor borcları | 247,996 | 75,454 |
| Çıxılsın: kredit zərərləri üzrə ehtiyat | - | - |
| **Ticarət və digər debitor borclara daxil olan cəmi maliyyə aktivləri** | **336,926** | **208,911** |
| Digər alınacaq vəsaitlər | 31,062 | 28,036 |
| Verilmiş avanslar | 96,018 | 30,537 |
| Çıxılsın: dəyərsizləşmə üzrə ehtiyat | - | - |
| **Cəmi ticarət və digər debitor borcları** | **464,006** | **267,484** |

Qrup gözlənilən kredit zərərlərinin ölçülməsi üçün 9 saylı MHBS-da nəzərdə tutulan sadələşdirilmiş yanaşma tətbiq edir. Bu yanaşma ticarət və digər debitor borclara daxil olan maliyyə aktivləri üçün bütöv müddət üzrə gözlənilən kredit zərərləri ehtiyatının istifadəsini nəzərdə tutur.

## 11 Borc qiymətli kağızlara investisiyalar

31 dekabr 2020-ci il tarixinə borc qiymətli kağızlara investisiyaların kateqoriyalar üzrə təhlili aşağıdakı cədvəldə göstərilir. Bütün bu investisiyalar məcburi qaydada MZƏD kateqoriyasında təsnifləşdirilmiş borc qiymətli kağızlardan ibarətdir:

31 dekabr 2020-ci il və 31 dekabr 2019-cu il tarixlərinə ticarət üçün investisiyalar aşağıda göstərilir:

| | 31 dekabr 2020-ci il | 31 dekabr 2019-cu il |
|---|---|---|
| Azərbaycan Respublikası Maliyyə Nazirliyinin istiqrazları | 680,376 | 243,894 |
| Korporativ istiqrazlar | - | 23,009 |
| **Cəmi borc qiymətli kağızlara investisiyalar** | **680,376** | **266,903** |

31 dekabr 2020-ci il tarixinə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin istiqrazları üzrə illik gəlirlilik dərəcəsi ödəmə müddətinə uyğun olaraq 5.76%-10.50% (31 dekabr 2019-cu il: 7.63%-9.34%) təşkil edir.

Qrup tərəfindən məcburi qaydada MZƏD kateqoriyasında qiymətləndirilən borc qiymətli kağızlar ticarət qiymətli kağızları və "digər" biznes modelindəki qiymətli kağızları əks etdirir. MZƏD kateqoriyasında ölçülən borc qiymətli kağızlar ədalətli dəyərlə tanınır ki, bu da, həmçinin kredit riski ilə bağlı müvafiq silinmələri əks etdirir və Qrupun kredit riski barədə ən dəqiq məlumatı təqdim edir.

Borc qiymətli kağızlara investisiyaların qiymətləndirmə kateqoriyaları və növləri haqqında məlumat Qeyd 20-də açıqlanır. Valyuta və kredit riskləri haqqında məlumat Qeyd 18-də təqdim edilir.

MZƏD kateqoriyasında ölçülən maliyyə aktivləri ədalətli dəyərlə tanınır ki, bu da, həmçinin kredit riski ilə bağlı müvafiq silinmələri əks etdirir. Maliyyə aktivləri bazarda müşahidə oluna bilən məlumatlara əsasən ədalətli dəyərlə qeydə alındığına görə Qrup dəyərsizləşmə əlamətlərini təhlil etmir.

31 dekabr 2020-ci il və 31 dekabr 2019-cu il tarixlərinə MZƏD kateqoriyasında ölçülən borc qiymətli kağızların kredit keyfiyyətinə görə təhlili aşağıdakı kimi olmuşdur:

## 11 Borc qiymətli kağızlara investisiyalar (davamı)

| | Dövlət istiqrazları | Korporativ istiqrazlar | Cəmi, 31 dekabr 2020-ci il |
|---|---|---|---|
| *Vaxtı keçməmiş və dəyərsizləşməmiş (ədalətli dəyərlə)* | | | |
| - A- reytinqindən aşağı | 680,376 | - | 680,376 |
| - Reytinqsiz | - | - | - |
| **Cəmi vaxtı keçməmiş və dəyərsizləşməmiş** | **680,376** | **-** | **680,376** |

| | Dövlət istiqrazları | Korporativ istiqrazlar | Cəmi, 31 dekabr 2019-cu il |
|---|---|---|---|
| *Vaxtı keçməmiş və dəyərsizləşməmiş (ədalətli dəyərlə)* | | | |
| - A- reytinqindən aşağı | 243,894 | - | **680,376** |
| - Reytinqsiz | - | 23,099 | - |
| **Cəmi vaxtı keçməmiş və dəyərsizləşməmiş** | **243,894** | **23,099** | **266,903** |

## 12 Pay qiymətli kağızlara investisiyalar

| | 31 dekabr 2020-ci il | 31 dekabr 2019-cu il |
|---|---|---|
| MZƏD kateqoriyasında ölçülən pay qiymətli kağızlar | 616,015 | 615,192 |
| **Cəmi səhmlərə investisiyalar** | **616,015** | **615,192** |

MZƏD kateqoriyasında ölçülən bütün pay qiymətli kağızlar korporativ səhmlərdən, ticarət üçün qiymətli kağızlardan və ilkin tanınma zamanı SMGƏD kateqoriyasına aid edilməyən digər pay qiymətli kağızlardan ibarətdir.

Pay qiymətli kağızlara investisiyaların qiymətləndirmə kateqoriyaları haqqında məlumat Qeyd 20-də açıqlanır. Valyuta və kredit riskləri haqqında məlumat Qeyd 18-də təqdim edilir.

## 13 Pul vəsaitləri və onların ekvivalentləri

| | 31 dekabr 2020-ci il | 31 dekabr 2019-cu il |
|---|---|---|
| Nağd pul | 46,086 | 231,484 |
| Tələb edilənədək bank qalıqları | 115,867 | 558,307 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **161,953** | **789,791** |

| | 31 dekabr 2020-ci il | 31 dekabr 2019-cu il |
|---|---|---|
| AZN ilə bank qalıqları | 32,651 | 558,299 |
| ABŞ dolları ilə bank qalıqları | 83,216 | 2 |
| Avro olə bank qalıqları | - | 6 |
| **Cəmi bank qalıqları** | **115,867** | **558,307** |

**13 Pul vəsaitləri və onların ekvivalentləri (davamı)**

"Fitch rating" agentliyinin reytinqlərinə əsasən pul vəsaitləri və onların ekvivalentlərinin kredit keyfiyyətinə görə təhlili aşağıdakı cədvəldə göstərilir:

| | 31 dekabr 2020-ci il Tələb edilənədək bank qalıqları | 31 dekabr 2019-cu il Tələb edilənədək bank qalıqları |
|---|---|---|
| - Yüksək dərəcə | 242 | 242 |
| - Orta dərəcə | 115,170 | 552,143 |
| - Reytinqsiz | 455 | 5,922 |
| **Nağd pul çıxılmaqla, cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **115,867** | **558,307** |

**14 Sair öhdəliklər**

| | 31 dekabr 2020-ci il | 31 dekabr 2019-cu il |
|---|---|---|
| İcarə öhdəlikləri | 132,878 | 69,033 |
| İşçilər üzrə hesablanmış xərclər | 4,478 | 51,121 |
| Sair öhdəliklər | 46,925 | 133,065 |
| **Cəmi sair öhdəliklər** | **184,281** | **253,219** |

2020-ci il ərzində icarə müqaviləsi üzrə cəmi ödənişlər 72,000 AZN (2019-cu il: 124,800 AZN) təşkil etmişdir.

**15 Gəlirlərin kateqoriyalar üzrə təhlili**

Gəlirlərin tanınma müddəti (hər bir gəlir axını üzrə) aşağıda göstərilir:

| | 2020-ci il | 2019-cu il |
|---|---|---|
| Müəyyən zaman anında | 924,500 | 1,520,644 |
| Dövr ərzində | 576,972 | 327,936 |
| **Cəmi gəlirlər** | **1,501,472** | **1,848,580** |

1 yanvar 2018-ci il tarixindən qüvvəyə minmiş gəlirin tanınma təlimatına uyğun olaraq "sair gəlirlərin" kateqoriyalar üzrə təhlili aşağıda göstərilir:

| | 2020-ci il | 2019-cu il |
|---|---|---|
| Xarici bazar əməliyyatlarından gəlir | 111,425 | 178,196 |
| Digər xidmətlərdən gəlir | 34,281 | 29,905 |
| Konsaltinq xidmətindən gəlir | 22,624 | 19,727 |
| **Cəmi sair gəlirlər** | **168,330** | **227,828** |

## 16 Sair əməliyyat xərcləri, sair xalis və digər gəlirlər

*Sair əməliyyat xərcləri:*

| | 2020-ci il | 2019-cu il |
|---|---|---|
| Köhnəlmə və amortizasiya xərcləri | (99,346) | (140,697) |
| Konsaltinq və peşəkar xidmət haqları | (70,207) | (52,906) |
| Nümayəndəlik xərcləri | (57,349) | (70,471) |
| Reklam xərcləri | (37,641) | (22,405) |
| Komissiya xərcləri | (11,623) | (23,037) |
| Ofis xərcləri | (10,593) | (51,260) |
| Sığorta xəcləri | (10,278) | (3,533) |
| Təmir və texniki xidmət xərcləri | (3,989) | (21,436) |
| Ezamiyyə xərcləri | (2,942) | (95,090) |
| Təlim xərcləri | (390) | (5,018) |
| Digər xərclər | (48,166) | (24,316) |
| **Cəmi əməliyyat xərcləri** | **(352,524)** | **(510,169)** |

31 dekabr 2020-ci il tarixində bitən il üzrə 46,737 AZN ( 2019-cu il: 126, 650 AZN) məbləğində *"sair xalis gəlirlər"*i və 17,554 AZN (2019-cu il: 17,554 AZN) *"digər gəlirlər"* üzrə məbləğləri müvafiq olaraq qiymətli kağızların ədalətli dəyərindəki dəyişikliklər və pay qiymətli kağızlarından (korporativ səhmlər) əldə olunan dividendlər təşkil etmişdir.

## 17 Mənfəət vergisi

Mənfəət vergisi xərci aşağıdakılardan ibarətdir:

| | 2020-ci il | 2019-cu il |
|---|---|---|
| Cari vergi xərci | (60,326) | (183,908) |
| Əvvəlki ilin vergi xərcinin realizasiyası | - | (14,555) |
| İl üzrə təxirə salınmış mənfəət vergisi (xərci)/gəliri | (94,901) | 96,232 |
| **Mənfəət vergisi xərci** | **(155,227)** | **(102,231)** |

2020-ci və 2019-cu illər ərzində şirkətlərə tətbiq edilən mənfəət vergisi dərəcəsi 20% təşkil etmişdir. Effektiv mənfəət vergisi dərəcəsi qanunvericilikdə nəzərdə tutulan mənfəət vergisi dərəcəsindən fərqlənir. Aşağıdakı cədvəldə qanunvericiliklə nəzərdə tutulmuş mənfəət vergisi xərci faktiki xərclərlə üzləşdirilir:

| | 2020-ci il | 2019-cu il |
|---|---|---|
| **Mənfəət vergisi xərcindən əvvəlki mənfəət** | **486,704** | **382,402** |
| Qanunvericiliklə müəyyən edilmiş mənfəət vergisi dərəcəsi | 20% | 20% |
| Qanunvericiliklə müəyyən edilmiş dərəcə ilə hesablanmalı olan mənfəət vergisi xərci | (97,341) | (76,480) |
| Vergi məqsədləri üçün çıxılmayan xərclərin vergi effekti: | | |
| Gəlirdən çıxılmayan xərclərin effekti | (1,997) | (11,196) |
| Digər müvəqqəti olmayan fərqlərin vergi təsiri | (55,889) | - |
| Əvvəlki dövrlərə aid mənfəət vergisi üzrə az/çox hesablanmış ehtiyat | - | (14,555) |
| **Mənfəət vergisi xərci** | **(155,227)** | **(102,231)** |

## 17 Mənfəət vergisi (davamı)

31 dekabr tarixinə təxirə salınmış vergi aktiv və öhdəlikləri və onların müvafiq illərdə hərəkəti aşağıdakı kimi olmuşdur:

| | 2018-ci il | 1 yanvar 2019-cu il tarixindən BMHS 16-ya keçidin təsiri | Mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda tanınmış | 2019-cu il | Mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda tanınmış | 2020-ci il |
|---|---|---|---|---|---|---|
| Avadanlıqlar | (1,888) | 47,835 | (61,673) | (15,726) | 15,726 | - |
| Qeyri-maddi aktivlər | - | - | (32,962) | (32,962) | 6,386 | (26,576) |
| Ticarət və digər debitor borclar | (179,119) | - | 198,977 | 19,858 | (19,858) | - |
| Sair öhdəliklər | 116,320 | (47,835) | (30,997) | 37,488 | (82,647) | (45,158) |
| Digər | 24,318 | | 22,886 | 47,204 | (14,508) | 32,696 |
| **Təxirə salınmış vergi aktivi** | **(40,369)** | **-** | **96,231** | **55,862** | **(94,901)** | **(39,038)** |

Avadanlıqlar və sair öhdəliklər müvafiq olaraq BMHS 16-ya keçidin təsirini əks etdirir.

## 18 Maliyyə risklərinin idarə edilməsi

Qrup daxilində risklərin idarə edilməsi funksiyası maliyyə riskləri, əməliyyat və hüquqi risklər ilə əlaqədar həyata keçirilir. Maliyyə risklərinə bazar riski (o cümlədən xarici valyuta, faiz dərəcəsi və digər qiymət riskləri), kredit riski və likvidlik riski daxildir. Maliyyə risklərinin idarə edilməsinin əsas məqsədi risk limitlərinin müəyyən edilməsi və bu limitlərə riayət edilməsidir. Əməliyyat və hüquqi risklərin idarə edilməsində məqsəd bu risklərin azaldılması üçün nəzərdə tutulan daxili qayda və prosedurlara müvafiq qaydada riayət edilməsini təmin etməkdən ibarətdir.

***Əməliyyat riski.*** Əməliyyat riski qeyri-adekvat və ya uğursuzluqla nəticələnmiş daxili proseslərdən, insanlardan, sistemlərdən və yaxud kənar hadisələrin baş verməsindən yaranan zərər riskidir.

Şirkət 2020-ci il ərzində riskləri idarəetmə siyasətinə yenidən baxmış və idarəetməyə verilmiş aktivlər üzrə risklərə məruz qalmadığını müəyyən etmişdir və bu xidmət mahiyyətcə fidusiar fəaliyyət hesab olunmuşdur.

2020-ci il ərzində idarəetməyə verilmiş aktivlər üzrə müqavilələrin 90%-nin şərtləri və qaydaları aşağıdakı şəkildə müəyyən edilmişdir:

- Müştəri tərəfindən rüblük hesablanmış və ödənilməli olan ümumi idarəetməyə verilmiş portfelin 1%-i həcmində sabit idarəçilik komissiyası tətbiq edilmişdir.
- İdarə olunan portfel üzrə dəyişkən perfomans komissiyası Şirkət ilə Müştəri arasındakı əvvəlki 50% / 50% nisbətindən müqavilənin başa çatma tarixində portfel gəlirlərinin artıq olan hissəsi üzrə müvafiq olaraq 10% / 90% nisbətinə endirilmişdir.
- Minimal tələb olunan gəlir indi baza göstərici kimi müəyyən edilmişdir. Yeni şərtlərə görə idarəetməyə verilmiş qiymətli kağızlar üzrə bazar və kredit riski müştərilərin üzərində qalır.

***Kredit riski.*** Maliyyə aləti ilə əməliyyatlar üzrə tərəflərdən biri müqavilə öhdəliyini icra edə bilmədikdə və bu, digər tərəfin maliyyə zərəri çəkməsinə səbəb olduqda, Qrup kredit riskinə məruz qalır.

Kredit riski Qrupun kontragentlərlə həyata keçirdiyi kredit və digər əməliyyatlar nəticəsində yaranır ki, bu da maliyyə aktivlərinin və balansdankənar kredit öhdəliklərin yaranmasına səbəb olur.

Qrupun məruz qaldığı kredit riskinin maksimal səviyyəsi konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatda maliyyə aktivlərinin balans dəyərində əks etdirilir. Verilmiş maliyyə zəmanətləri, kreditlər, istifadə edilməmiş kredit xətləri və ixrac/idxal akkreditivlərinin təqdim edilməsi ilə bağlı öhdəliklər üzrə maksimal kredit riski öhdəliyin məbləğidir.

*Kredit riskinin təsnifatı sistemi.* Kredit riskinin qiymətləndirilməsi və kredit riskinin səviyyəsinə görə maliyyə alətlərinin təsnifləşdirilməsi məqsədilə Qrup beynəlxalq reytinq agentlikləri (Standard & Poor's S&P, Fitch, Moody's) tərəfindən müəyyənləşdirilən xarici kredit reytinqi sistemindən istifadə edir. Kənar kredit reytinqləri müəyyən edilmiş defolt ehtimalları intervallarından ibarət vahid daxili şkala üzrə tutuşdurulur. Qrupun kredit riski orta səviyyəyə aid olub, defolt ehtimalı intervalı 3%-10% təşkil edir. Orta səviyyə kredit riski qənaətbəxş hesab edilən orta keyfiyyətli kreditləri əks etdirir.

Xarici reytinqlər və müvafiq defolt ehtimalları intervalları aşağıdakı maliyyə alətlərinə tətbiq edilir: *pul vəsaitləri və onların ekvivalentləri, müştərilərdən alınacaq vəsaitlər və ticarət və digər debitor borclar.*

Kredit riski üzrə xarici reytinqlər müvafiq reytinq agentlikləri tərəfindən dərc edilmiş defolt və bərpa statistikası əsasında PD və LGD kimi kredit riski parametrlərini qiymətləndirmək üçün istifadə olunur.

***Maliyyə alətlərinin mərhələlər üzrə təsnifatı.*** Debitor borcları portfeli üçün BMHS 9 defolt olmamış aktivlərin 2-ci Mərhələyə aid edilməsi və maliyyə alətlərinin mərhələlərə bölüşdürülməməsi kimi praktiki istisnadan istifadə etməyə imkan verir. Bunu nəzərə alaraq, debitor borcları 3-cü Mərhələyə (defolt şəraitinə uyğun olduqda) və ya 2-ci Mərhələyə (aktiv defolt olunmamış hesab edildikdə) aid edilə bilər və buna görə ehtiyat hər zaman bütöv müddət üçün yaradılır.

Defolt bir hesab-faktura səviyyəsində müəyyən edilir və vaxtı keçmiş günlərə əsasən tanınır. Hesab-faktura üzrə ödəniş müddəti 90 gündən çox keçərsə bu, defolt olmuş hesab edilir və sonra 3-cü Mərhələyə təsnifləşdirilir. Qrupda debitor borclar üzrə standart əməliyyat prosesləri müştərilərin keyfiyyət qiymətləndirməsini nəzərdə tutmadığına görə heç bir əlavə meyar nəzərdən keçirilmir. Yuxarıda qeyd olunanları nəzərə alaraq, müştəri yalnız ödəniş müddətinin keçməsindən əvvəl deyil, bu müddət keçdikdən sonra defolta məruz qala bilər.

## 18 Maliyyə risklərinin idarə edilməsi (davamı)

Ticarət debitor borcları üzrə dəyərsizləşmə zərərləri əməliyyat mənfəətinin tərkibində xalis dəyərsizləşmə zərəri kimi göstərilir. Əvvəllər silinmiş məbləğlərin sonradan bərpası da eyni sətir maddəsində göstərilir.

Ümumiyyətlə, gözlənilən kredit zərərləri (GKZ) aşağıdakı kredit riski parametrlərinin hasilinə bərabərdir: effektiv faiz dərəcəsindən istifadə etməklə cari dəyərə diskontlaşdırılan defolta məruz qalan dəyər (EAD), defolt ehtimalı (PD) və defolt baş verəcəyi halda itirilməsi gözlənilən məbləğ (LGD). GKZ hər bir fərdi maliyyə aktivinin və ya ümumi seqmentin bütöv müddəti ərzində hər bir növbəti il üçün kredit riski parametrlərini proqnozlaşdırmaqla müəyyən edilir.

*GKZ modellərinə daxil edilmiş proqnoz məlumatları.* GKZ-in qiymətləndirilməsi üçün miqrasiya matrisindən istifadə edildikdə proqnoz məlumatları artıq təyin olunmuş xarici reytinqə daxildir.

***Bazar riski.*** Qrup bazarda ümumi və spesifik dəyişikliklər riskinə məruz qalan (a) valyuta (b) faiz dərəcəsi və (c) pay alətləri üzrə açıq mövqelərdən yaranan bazar risklərinə məruz qalır. Rəhbərlik qəbul edilə bilən risklərin səviyyəsi üzrə limitlər müəyyən edir və bu limitlərə gündəlik nəzarət edir. Buna baxmayaraq, belə yanaşmadan istifadə edilməsi bazarda daha əhəmiyyətli dəyişikliklərin baş verdiyi halda, müəyyən edilmiş limitlərdən artıq zərərlərin yaranmasının qarşısını almır.

***Valyuta riski.*** Rəhbərlik xarici valyuta riski ilə bağlı hər bir valyuta üzrə limitlər müəyyən edir. Qrup spekulyativ fəaliyyət və ya hecinq məqsədləri üçün hər hansı törəmə alətlərlə əməliyyat aparmır.

Valyuta riski ilə əlaqədar Qrupun risk siyasətinin əsas elementi hər hansı valyuta üzrə dilinq əməliyyatlarının aparılması üçün planlaşdırılmış vəziyyətin olmamasıdır. Limitli açıq valyuta mövqelərinin baş verməsi yalnız fəaliyyətin normal nəticəsində ortaya çıxır. Qrup aktiv və öhdəliklərini valyutalar üzrə uyğunlaşdırmaq üçün bütün imkanlarından istifadə edir.

Hesabat dövrünün sonuna Qrupun məruz qaldığı valyuta riski üzrə ümumi təhlil aşağıdakı cədvəldə əks olunur:

| | 31 dekabr 2020-ci il | | | 31 dekabr 2019-cu il | | |
|---|---|---|---|---|---|---|
| | **Monetar maliyyə aktivləri** | **Monetar maliyyə öhdəlikləri** | **Xalis balans mövqeyi** | **Monetar maliyyə aktivləri** | **Monetar maliyyə öhdəlikləri** | **Xalis balans mövqeyi** |
| Azərbaycan manatı | 1,665,967 | - | 1,665,967 | 1,649,305 | - | 1,649,305 |
| ABŞ dolları | 83,216 | - | 83,216 | 2 | - | 2 |
| Avro | - | - | - | 6 | - | 6 |
| **Cəmi** | **1,749,184** | **-** | **1,749,184** | **1,649,313** | **-** | **1,649,313** |

Bütün digər dəyişənlərin sabit qalması şərtilə, hesabat dövrünün sonuna Qrupun müvafiq müəssisəsinin əməliyyat valyutasına tətbiq edilən məzənnələrdəki mümkün dəyişikliklərin mənfəət və ya zərərə, eləcə də kapitala təsiri aşağıdakı cədvəldə əks etdirilir:

| | 31 dekabr 2020-ci il | | 31 dekabr 2019-cu il | |
|---|---|---|---|---|
| | **Mənfəət və ya zərər təsir** | **Kapitala təsir** | **Mənfəət və ya zərər təsir** | **Kapitala təsir** |
| ABŞ dollarının 20% möhkəmlənməsi | 16,643 | - | - | - |
| ABŞ dollarının 20% zəifləməsi | (16,643) | - | - | - |

***Faiz dərəcəsi riski.*** Qrup bazar faiz dərəcələrindəki dəyişikliklərin təsirinə məruz qalmır.

***Likvidlik riski.*** Likvidlik riski maliyyə öhdəliklərinin yerinə yetirilməsi zamanı Qrupun çətinliklərlə üzləşəcəyi riskdir. Qrup yuxarıda qeyd edilən bütün öhdəliklərin eyni zamanda yerinə yetirilməsi üçün kifayət qədər pul ehtiyatları saxlamır, belə ki, təcrübəyə əsasən həmin öhdəliklərin yerinə yetirilməsi üçün tələb olunan pul vəsaitlərini kifayət qədər dəqiqliklə proqnozlaşdırmaq olar. Rəhbərlik hər ay Qrupun pul vəsaitlərinin hərəkəti üzrə proqnozlara nəzarət edir.

Qrupun likvidlik portfeli ticarət hesabında olan pul vəsaitlərindən, müştərilərdən alınacaq vəsaitlərdən, borc qiymətli kağızlara investisiyalardan (Qeyd 11), pay qiymətli kağızlara investisiyalardan (Qeyd 12), pul vəsaitləri və onların ekvivalentlərindən (Qeyd 13) və ticarət və digər debitor borclardan (Qeyd 10) ibarətdir.

## 18 Maliyyə risklərinin idarə edilməsi (davamı)

Qrup aşağıda göstərildiyi kimi gözlənilən ödəmə müddətlərinə və diskontlaşdırılmış nəticələrə əsasən likvidlik kəsirinə nəzarət edir:

| | Tələb edilənədək və 1 aydan az | 1 aydan 6 aya qədər | 6 aydan 12 aya qədər | 12 aydan 5 ilə qədər | Cəmi |
|---|---|---|---|---|---|
| **31 dekabr 2020-ci il** | | | | | |
| **AKTİVLƏR** | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 115,867 | - | - | - | 115,867 |
| Ticarət hesabında olan pul vəsaitləri | 115,146 | - | - | - | 115,146 |
| Ticarət debitor borcları | | 336,926 | | | 336,926 |
| Borc qiymətli kağızlara investisiyalar | 680,376 | - | - | - | 680,376 |
| Pay qiymətli kağızlara investisiyalar | 616,015 | - | - | - | 616,015 |
| **ÖHDƏLİKLƏR** | | | | | |
| İcarə öhdəlikləri | - | (35,191) | (33,842) | (63,845) | (132,878) |
| **Gözlənilən ödəmə müddətlərinə əsasən xalis likvidlik mövqeyi** | **1,527,404** | **301,735** | **(33,842)** | **(63,845)** | **1,731,452** |
| **31 dekabr 2019-cu il** | | | | | |
| **AKTİVLƏR** | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 558,307 | | - | - | 558,307 |
| Ticarət debitor borcları | - | 208,911 | - | - | 208,911 |
| Borc qiymətli kağızlara investisiyalar | 266,903 | | | | 266,903 |
| Pay qiymətli kağızlara investisiyalar | 615,192 | | | | 615,192 |
| **ÖHDƏLİKLƏR** | | | | | |
| İcarə öhdəlikləri | - | - | (69,033) | - | (69,033) |
| **Gözlənilən ödəmə müddətlərinə əsasən xalis likvidlik mövqeyi** | **1,440,402** | **208,911** | **(69,033)** | - | **1,580,280** |

## 19 Kapitalın idarə edilməsi

Kapitalın idarə olunmasında Qrupun məqsədi fəaliyyətin fasiləsizliyini təmin etməklə səhmdarlar üçün müvafiq gəlirlilik səviyyəsini təmin etmək, digər tərəflərin maraqlarını qorumaq və kapital xərclərini azaltmağa imkan verən optimal kapital strukturunu saxlamaqdır. 31 dekabr 2020-ci il tarixinə Qrupun idarə etdiyi kapitalın məbləği 2,226,456 AZN (2019: 1,913,376 AZN) təşkil etmişdir.

2020-ci il ərzində Qrup qanunvericiliklə müəyyən edilmiş 300,000 AZN məbləğində minimal kapital tələbinə riayət etmişdir.

## 20 Maliyyə alətlərinin qiymətləndirmə kateqoriyaları üzrə təqdim edilməsi

MHBS 9 "Maliyyə alətləri" standartına uyğun olaraq, Qrup maliyyə aktivlərini aşağıdakı kateqoriyalara təsnifləşdirir: (a) MZƏD kateqoriyasında ölçülən maliyyə aktivləri; (b) SMGƏD kateqoriyasında ölçülən borc alətləri; (c) SMGƏD kateqoriyasında ölçülən pay alətləri və (d) amortizasiya olunmuş dəyərlə qiymətləndirilən maliyyə aktivləri. MZƏD kateqoriyasında ölçülən maliyyə aktivləri iki alt-kateqoriyaya bölünür: (i) MZƏD kateqoriyasında məcburi qaydada qiymətləndirilən aktivlər və (ii) ilkin tanınma zamanı həmin kateqoriyaya aid edilmiş aktivlər.

31 dekabr 2020-ci il və 31 dekabr 2019-cu il tarixinə maliyyə aktivlərinin növləri ilə yuxarıda qeyd edilən qiymətləndirmə kateqoriyalarının üzləşdirilməsi aşağıdakı cədvəldə göstərilir:

| | 2020-ci il | | | 2019-cu il | | |
|---|---|---|---|---|---|---|
| | **MZƏD (məcburi)** | **Amortizasiya olunmuş dəyərlə qiymətləndirilən** | **Cəmi** | **MZƏD (məcburi)** | **Amortizasiya olunmuş dəyərlə qiymətləndirilən** | **Cəmi** |
| **AKTİVLƏR** | | | | | | |
| ***Pul vəsaitləri və onların ekvivalentləri*** | - | 161,953 | 161,953 | - | 789,791 | 789,791 |
| ***Ticarət hesabında olan pul vəsaitləri*** | - | 115,146 | 115,146 | - | 4,516 | 4,516 |
| ***Borc qiymətli kağızlara investisiyalar*** | | | | | | |
| - AR Maliyyə Nazirliyinin istiqrazları | 680,376 | - | 680,376 | 243,894 | - | 243,894 |
| - Korporativ istiqrazlar | - | - | | 23,009 | - | 23,009 |
| ***Pay qiymətli kağızlara investisiyalar*** | | | | | | |
| - Korporativ səhmlər | 616,015 | - | 616,015 | 615,192 | - | 615,192 |
| ***Sair maliyyə aktivləri:*** | | | | | | |
| - Ticarət və digər debitor borclar | - | 464,006 | 464,006 | - | 267,484 | 267,484 |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **1,296,391** | **741,105** | **2,037,496** | **882,095** | **1,061,791** | **1,943,886** |

## 21 Hesabat tarixindən sonrakı hadisələr

Hesabat dövründən sonra Qrupda baş vermiş əhəmiyyətli hadisə qeydə alınmamışdır.